

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ekoloji tarazlığa daha bir töhfə



6

SƏS

№ 174 (7099)

24 sentyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycanın qətiyyətli Sərkərdəsi və güclü ordusu var!



2

*Prezident İlham Əliyev:"Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq"*

# Beynəlxalq hüquq və normalardan xəbərsiz

# AXMAQ DİPLOMAT



10

## İcma: "Dağlıq Qarabağ məsələsi"nin hələ də həll olunmadığını düşünənlər kökündən yanılırlar

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

5

## Payız qapıdan girdi, xəstəliklər bacadan



14

## Dünyamızın axırına çıxırıq



7

## Zəngəzur dəhlizi: Rusiyanın və İranın mövqeyi eynidir, yoxsa fərqli?




15

## "Bu cür təxribatçı və qərəzli bəyanatlar..."



5

# Azərbaycanın qətiyyətli Sərkərdəsi və güclü ordusu var!

***Azərbaycan Prezidenti İlham Əliyev VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışında ölkə qarşısında duran bəzi vəzifələri açıqlayıb. Dövlətimizin başçısı birinci nömrəli vəzifənin hərbi gücümüzün artırılması olduğun bildirib: "Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda, Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir".***



*Prezident İlham Əliyev:"Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq"*



Azərbaycan Prezidenti Qarabağ və Şərqi Zəngəzurun bərpasının da ölkə qarşısında duran vəzifə olduğunu söyləyərək qeyd edib: "Ancaq biz əgər hərbi sahəyə diqqətimizi azaltsaq və oraya ayrılan vəsaiti lazımi səviyyədə təmin etməsək, gələcəkdə bizi problemlər gözləyə bilər".

Otuz ilə yaxın bir zamanda erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan bu gün yeni bir dövrünə qədəm qoyub. Əlbəttə ki, ordumuzun gücü, xalqımızın qəhrəmanlığı, xalq-iqtidar birliyi və ən əsası da Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün dünyanı təəccübləndirən 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazdıq. Bu böyük Zəfər Azərbaycan Respublikasının dövlətçilik tarixinə qızıl hərflərlə yazıldı.

Vətən müharibəsindən sonra ən qanlı toqquşma isə 2022-ci ilin 12-14 sentyabr tarixlərində baş vermişdir. Bu döyüşlərin səbəbi isə Ermənistan silahlı qüvvələri bölmələrinin 2022-ci il sentyabrın 12-dən 13-nə keçən gecədən başlayaraq Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətməsi idi.

Daha sonra, 2023-cü ilin martında Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni şəkildə Şuşa istiqamətində təxribatlar törətmiş, aprel və may ayında isə şərti dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun mövqeləri atəşə tutulmuşdur. Təqribən, bir gün davam edən antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. 2020-ci ilin sentyabrın 19-da Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsinin sıradan çıxması və mülki vətəndaşlarımızın həlak olması, elə həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımızın şəhid olması Azərbaycan Respublikasını öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün lokal xarakterli antiterror tədbirlərinə başlamağa vadar etdi. Cəmi 23 saat 43 dəqiqə ərzində keçirilən əməliyyatın əsas məqsədi Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin zərərsizləşdirilməsi, onların hərbi obyektlərinin məhv edilməsi və Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması idi.

### "QƏLƏBƏMİZİ HƏZM EDƏ BİLMƏYƏN XARİCİ DAİRƏLƏR BİZƏ QARŞI YENİ PLANLAR HAZIRLAYIR"

Dövlətimizin başçısı Ermənistanda revanşist qüvvələrin baş qaldırdığını diqqətə çəkib: "Bu, təkcə marginal siyasi ünsürlər deyil, eyni zamanda, bugünkü Ermənistan hakimiyyəti bu fikirlərlə, bu xülyalarla yaşayır". Onların İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri ilə barışmaq istəmədiklərini vurğulayan dövlətimizin başçısı qeyd edib: "Üzdə bunu desələr də, onların işləri, siyasətləri, addımları tam əks mənzərə yaradır. Bu günə qədər heç bir funksional mahiyyət daşımayan Minsk qrupunun formal olaraq saxlanması da məhz buna dəlalət edir".

Bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizlədi və üçrəngli bayrağımız yolumuzu gözləyən torpaqlarımızda dalğalandı.

"Qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır", - deyən Prezident əldə edilmiş məlumatların bunu göstərdiyini vurğulayıb: "Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur. Bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı bu çirkin hərəkətlər başlasın. Yəni, biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə arxayınlaşmağa bizim heç cür imkanımız yoxdur".

### "İSTƏNİLƏN CAVABI VERMƏYƏ HAZIRIQ, BUNA QADİRİK VƏ HƏR ZAMAN BUNA HAZIR OLMALIYIQ"

Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir.

"İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində böyük dərəcədə öz hərbi gücümüzü artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, xüsusi təyinatlı qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni xüsusi təyinatlı qüvvələr, komanda qüvvələri yaradıldı və onların da say tərkibi ildən-ilə artır və artacaq", - deyə Prezident bildirib.

Ordumuzun döyüş qabiliyyətinin artdığını, texnika ilə təchizatın lazımi səviyyədə təmin edildiyini və ediləcəyini vurğulayan dövlətimizin başçısı bildirib: "Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq".

### "BİZ GÖZLƏYİRDİK Kİ, ERMƏNİSTAN ÖZ ŞƏRHLƏRİNİ DAHA OPERATİV VƏ ÇEVİK BİZƏ VERƏCƏK"

Prezident İlham Əliyev çıxışında Ermənistanla münasibətlərin normallaşması məsələsinə də toxunub. Dövlətimizin başçısı xatırladıb ki, İkinci Qarabağ müharibəsində, məhz Azərbaycanın təşəbbüsü ilə sülh danışıqları başlayıb. O vaxt nə Ermənistan, nə başqa ölkələr, ümumiyyətlə, gələcəyin nədən ibarət olacağı haqda heç öz fikirlərini formalaşdırmamışdılar. Ermənistanın məsələni süni şəkildə uzatdığını vurğulayan Prezident deyib: "Bu günə qədər - birinci layihəmiz Ermənistana göndəriləndən bu günə qədər 10 şərhlər mübadiləsi olub. ... aylar keçdikcə təbii olaraq biz gözləyirdik ki, Ermənistan öz şərhlərini daha operativ və çevik bizə verəcək.

Ardı Səh. 3

# Azərbaycanın qətiyyətli Sərkərdəsi və güclü ordusu var!

Əvvəli-Səh-2

Ancaq biz bunun tam əksini gördük. Son variantın onlardan alınmasını biz 70 gün gözləməli olduq. Bütün razılaşdırılmamış müddəalar onların variantında sülh müqaviləsindən çıxarıldı. Yəni, bu dərəcədə primitiv və qeyri-adekvat addım, sözün düzü, gözlənilən deyildi". Dövlətimizin başçısı bir sıra məqamların Ermənistanın, əslində, sülh istəmədiyini, vaxt uzatmaq istədiyini deməyə əsas verdiyini vurğulayıb.

"Ermənistan silah üçün nəzərdə tutulan Sülh Fondundan istifadə edir, Fransadan pulsuz silah alır. Ona görə bu, ciddi məsələdir", - deyən Prezident qeyd edib: "Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə görə birbaşa onlar cavabdehlik daşıyacaqlar. Təbii olaraq bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır. Onların Konstitusiyasına dəyişiklik edilməlidir, Minsk qrupu da ləğv olunmalıdır".



### "MÜHARİBƏDƏN SONRA BU İLİN SONUNA QƏDƏR XƏRCLƏNİLMƏSİ NƏZƏRDƏ TUTULAN VƏSAİT 19 MİLYARD MANATDIR"

İyirmi birinci yüzilliyin 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad etdi və tarixi ədalət bərpa olundu. Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və xalq-iqtidar birliyi 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın işğaldan azad olunmasında əsas şərtlənirici amil oldu. Təbii ki, ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və ordumuzun güclənməsi nəticəsində Azərbaycan Vətən müharibəsində döyüş meydanında qalib ölkə olduğunu göstərə bildi.

Bu gün güclü Azərbaycan Ordusunun qələbəsi keçmiş köçkünlərin doğma yurdlarına qayıtmasına səbəbdir. "Müharibədən sonra bu ilin sonuna qədər xərclənilməsi nəzərdə tutulan vəsait 19 milyard manatdır. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib", - deyə Prezident bildirib. Səkkiz mindən çox keçmiş köçkünün artıq Qarabağ və Şərqi Zəngəzura yerləşdiyini, hər il onların sayının artacağını bildirən dövlətimizin başçısı azad olunmuş ərazilərdə həyata keçirilən infrastruktur layihələrindən danışıb. Deyib ki, məktəblər, xəstəxanalar, sosial obyektlər tikilir, kəndlər salınır. Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır.

Bu gün işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işləri böyük vüsət alıb. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası nəticəsində nəzərdə tutulan hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyinin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib. Bu Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. Böyük Qayıdış Proqramının birinci mərhələsinin sonunda 2026-cı ilin sonunda 22 min insan təkcə Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq.

Müharibədən çıxmış bir dövlət qısa zamanda Böyük Qayıdışın təntənəsini yaşayır. Bu gün işğaldan azad olunan ərazilərimizdə böyük abadlıq, quruculuq işləri davam etdirilir. Tikilən yeni evlər, ictimai binalar, sosial obyektlər əzəli sakinləri qoynuna alır və yaşından asılı olmayaraq hər bir insanın rahatlığı, firəvanlığı təmin olunub.

*NƏZAKƏT ƏLƏDDİNQIZI*

# "Özbəkistan üçün Azərbaycanın mühüm dövlətlər sırasında layiqli yeri var"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Özbəkistan Respublikasının Baş nazirinin müavini Cəmşid Xocayevi qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlığını bildirən Cəmşid Xocayev, ilk növbədə, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.***



## Prezident İlham Əliyev Özbəkistanın Baş nazirinin müavinini qəbul edib

Prezident İlham Əliyev salamlara görə təşəkkürünü bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi. Cəmşid Xocayev vurğuladı ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın əldə etdiyi böyük uğurlar Özbəkistanda sevinc hissi ilə qarşılanır. O, 20 Sentyabr - Azərbaycanın Dövlət Suverenliyi Günü münasibətilə təbriklərini çatdırdı.

Özbəkistan üçün Azərbaycanın mühüm dövlətlər sırasında layiqli yeri olduğunu deyən qonaq ölkəmizin həm regionda, həm də dünyada böyük nüfuza malik olduğunu vurğuladı. O qeyd etdi ki, Prezident İlham Əliyevin müdrik qərarları ilə azad olunmuş ərazilərimizdə, o cümlədən tarixi şəhərlər olan Şuşa və Xankəndidə həyata keçirilən böyük yenidənqurma və bərpa işləri Özbəkistanda maraqla izlənilir. Cəmşid Xocayev iş adamları ilə birgə ölkəmizə səfərinin Azərbaycan və Özbəkistan prezidentlərinin tapşırıqlarının yerinə yetirilməsi ilə bağlı olduğunu diqqətə çatdırdı.

Prezident İlham Əliyev Özbəkistana dövlət səfərini, ondan əvvəl isə Özbəkistan Prezidentinin Azərbaycana səfərini məmnunluqla xatırladı. Özbəkistana dövlət səfəri zamanı iki ölkənin iş adamları ilə keçirdikləri görüşün əhəmiyyətinə toxunan Azərbaycan Prezidenti investisiya layihələri üzərində fəal iş aparılması istəyinin olmasını məmnunluqla qeyd etdi. Bu baxımdan Prezident İlham Əliyev yaradılmış birgə investisiya fondunun artıq konkret layihələrlə təmin olunduğunu vurğuladı.

Əziz qardaşı Şavkat Mirziyoyevlə qarşıdakı görüşlərini məmnunluqla gözlədiyini deyən Azərbaycan Prezidenti hər iki dövlət başçısının görüşlərinin əməkdaşlığın gündəliyində duran məsələlərin həyata keçirilməsi baxımından önəmini qeyd etdi.

Prezident İlham Əliyev Özbəkistan Baş nazirinin müavininin ölkəmizə səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi. Görüşdə əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.





# Əhmədli qəsəbəsindəki 120 yaşlı məscid Heydər Əliyev Fondunun təşəbbüsü ilə bərpa edilib



*Əhmədli qəsəbəsindəki 120 yaşlı məscid əsaslı təmirdən sonra istifadəyə verilib. 1904-cü ildə inşa olunmuş məsciddə təmir və bərpa işləri Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva və ailə üzvləri sentyabrın 23-də Əhmədli qəsəbə məscidində olublar.*



Bildirilib ki, qəsəbə sakinlərinin müraciətinə dərhal reaksiya verən Heydər Əliyev Fondunun təşəbbüsü ilə məscidin fasadında və ətrafında təmir-bərpa işləri aparılıb. Burada kişi və qadınlar üçün nəzərdə tutulmuş ibadət yerləri, dəstəmaz otaqları, mərasim evi əsaslı təmir olunub, məscidin ətrafı abadlaşdırılıb.

Eyni zamanda, Əhmədli qəsəbəsinin əsas girişində və qəsəbənin bir sıra mərkəzi küçələrində tarixi görkəm qorunmaqla abadlaşdırma işləri görülüb, qənbər daşları düzülüb, yaşıllıq zolaqları salınıb. Təmir olunan küçələrdə yeni kanalizasiya xətləri də çəkilib. Bir sıra fərdi evin dam örtüyü, darvazaları dəyişdirilib.

Qəsəbədə yerləşən abidə kompleksi və ətrafındakı park yenidən qurulub, yaşıllıq sahələri salınıb. Görülmüş işlərdə qəsəbənin özünəməxsus memarlığı qorunub saxlanılıb.

# "Qələbə əhəmiyyətinə görə Azərbaycan coğrafiyasını aşır"

"2020-ci il 27 sentyabr günü qədim və zəngin dövlətçilik tariximizdə xüsusi yer tutur. Həmin gün başlayan və 44 gün davam edən Vətən müharibəsinin gedişində təcavüzkar Ermənistan məğlub edildi, Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin qarşısında diz çökdü. Vətən müharibəsi öz xarakterinə görə ədalətli, azadlıq müharibəsi idi. Azərbaycanın haqq işini bərpa etmək, işğalçını qovub torpaqlarımızı azadlığına qovuşdurmaq məqsədi güdürdü. 27 sentyabr tarixində başlayan proseslər bir müddət sonra sərhədlərimiz üzərində nəzarətin tam bərqərar edilməsi ilə nəticələndi". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı deyib. O bildirib ki, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edilsə də, sərhədlərə heç bir zaman tam nəzarət edilməyib: "İşğalçı ölkə Azərbaycana silah-sursat və terrorçu qrupları daşımaqda davam edirdi. Vətən müharibəsindən sonrakı möhtəşəm addım isə 2023-cü il sentybar ayının 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləridir. Bu tədbirlər nəticəsində düşmən tamamilə ləğv edildi, separatçı rejim ağ bayraq qaldırdı. 1988-ci ildən bəri ilk dəfə olaraq Xankəndində dövlət bayrağımız ucaldıldı.



Bunu həyata keçirən Müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyev oldu.Azərbaycanın qazandığı qələbə ilə tariximizdə yeni bir dövr başladı. Azərbaycan dinc quruculuğa qədəm qoydu. Qazanılan qələbə ilə cənab Prezident İlham Əliyev Azərbaycan xalqının arzu və istəklərini gerçəkləşdirdi. Millətimiz başlıca hədəfinə nail oldu. Əldə edilən qələbə əhəmiyyətinə görə Azərbaycan coğrafiyasını aşır. Prezidentimizin rəhbərliyi ilə Azərbaycan dövləti təkcə Ermənistan, dünya ermənliyi deyil, onların havadarları üzərində qələbə qazandı, orta əsrlərdən bəri yürüdülən siyasəti darmadağın etdi, ermənilərin uydurma Böyük Ermənistan xülyalarını parçalayıb dağıtdı. Azərbaycanda separatizmin kökü birdəfəlik kəsildi. Qazanılan qələbə ilə cənab Prezidentimiz yeni müstəmləkəçilik ünsürlərindən əziyyət çəkən xalqlara da yol göstərdi, dünyada haqq-ədalətin rəmzi oldu. İşğaldan azad edilmiş ərazilərimizdə görülən işlər ağıllı şəhər və kəndlərin tikilməsi, cənab Prezidentimiz İlham Əliyevin gələcək Azərbaycan baxışlarıdır. Həmin ərazilərimizə qısa müddət ərzində vətəndaşlarımız, keçmiş məcburi köçkünlər qaytarılıb, lazımi bütün infrastruktur yaradılıb. Azərbaycan elmi, təhsili və mədəniyyəti işğaldan azad edilmiş ərazilərimizə qaytarılır. Aparılan işlər dövlət başçısının rəhbərliyi altında iqtisadi-maliyyə planlaşdırılmasının dəqiq aparıldığını göstərir. 27 sentyabr şəhidlərimizin anım günüdür. Allah şəhidlərimizə rəhmət etsin".

***Səbinə Hüseynli***

# “Bu cür təxribatçı və qərəzli bəyanatlar...”

*Rəsmi Bakı Kanada XİN başçısının Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hədəf alan bəyanatını pisləyib*



“Kanadanın xarici işlər naziri Melani Jolinin sentyabrın 22-də verdiyi bəyanatı qətiyyətlə pisləyir və tamamilə rədd edirik”. AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Kanada xarici işlər nazirinin bəyanatına cavab şərhində bildirilib.

Qeyd olunub ki, Kanadanın xarici işlər naziri beynəlxalq hüququn norma və prinsipləri əsasında 4 il əvvəl Ermənistanla Azərbaycan arasında münaqişənin bitdiyi regionumuzdakı reallıqlarla tanış olmaq əvəzinə, növbəti dəfə manipulyasiya və faktları təhrif etməklə məşğuldur. O, həmçinin 2023-cü ildə Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğuna və onun ərazimizdə dəstək verib saxladığı separatçı rejimə son qoyulduğu Qarabağ bölgəsi üzərində Azərbaycanın suverenliyinin tam bərpa olunması faktından da xəbərsizdir.

“Kanada xarici işlər nazirinin Qarabağ bölgəsi ilə bağlı Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hədəf alan, separatizmi dəstəkləyən iddiaları Kanadanın xarici siyasətinin nə qədər “dahi” və “uzaqgörən” olduğunu nümayiş etdirir. Təəssüflər olsun ki, Kanada rəsmiləri Ermənistanın 30 ilə yaxın hərbi təcavüzü zamanı azərbaycanlılara qarşı törətdiyi etnik təmizləmə, qırğınlar və bəşəriyyətə qarşı cinayətlər barədə susmaqla yanaşı, Azərbaycanın öz suveren ərazilərində heç bir mülki şəxsi hədəf almadan həyata keçirdiyi antiterror tədbirləri barədə erməni diasporu tərəfindən təbliğ olunan yalan rəvayətlər yayırlar. Kanadalı nazirin Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərindən olan 1 milyona yaxın məcburi köçkünün və Ermənistandan zorla deportasiya edilmiş şəxslərin vəziyyətinə və ayrılmaz hüquqlarına heç vaxt dəstək və maraq göstərmədiyi halda, regionda humanitar böhranla bağlı iddialar Kanadanın Azərbaycana qarşı açıq qərəzli mövqeyinin göstəricisidir. Kanadanın bölgəmizdə sülh və təhlükəsizliyin necə bərqərar olması barədə moizə oxumağa mənəvi haqqı yoxdur. Bir daha bildiririk ki, bu cür təxribatçı və qərəzli bəyanatlar regionun beynəlxalq hüququn prinsiplərinə hörmət əsasında gələcək inkişafı və tərəqqisinə maneədən başqa bir şey deyil”, - deyə XİN rəsmisi bildirib.

# “Əli Kərimli uşaq evi haqqında heç vaxt danışmayacaq”



“Əli Kərimli özünü hakimiyyət uğrunda mübarizə aparan siyasi partiya lideri kimi deyil, bir blogger kimi aparır. Hansısa gündəmdə olan narahatlığı o özünün partiyasının siyasi xətti kimi elan edir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib. Deputat sözlərinə belə davam edib: “Bir vaxtlar “Hanı hakimiyyət? niyə bir kəndi azad etmir?” deyirdi. Həmin dövrdə “Əli Kərimli öz bloqundan niyə Xankəndi əlimizin altında olduğuna görə ora girmir. Hakimiyyət qorxurmu?” deyə səslənirdi. Ancaq bir günlük antiterror əməliyyatında Azərbaycan ərazi bütövlüyünü təmin etdi və bugün isə Əli Kərimli uşaq evlərinin birində olmuş bir insidentlə bağlı özünü uşaq hüquqlarının müdafiəçisi kimi göstərir. Nədənsə Əli Kərimli heç vaxt uşaq hüquqlarının müdafiəsinə dair bir fikir də bildirməyib.

30 illik işğal dövründə çadır şəhərciyində yaşayan uşaqların vəziyyəti, onların təhsili, səhiyyəsi məsələsində Əli Kərimlinin səsini eşitməmişik. Yeni uşaq bağçalarının tikintisi, universitetlərin açılması barədə Əli Kərimlinin fikrini eşitməmişik. Ombudsmanın uşaq hüquqları ilə bağlı hesabatına da heç vaxt Əli Kərimli münasibət bildirməyib. Bəli, bugün Bakıdakı uşaq evlərinin birində insident olduğu bildirilir. Bununla müvafiq orqanlar məşğuldurlar və yəqin ki nəticəsi barəsində məlumat veriləcək. Nəinki o, yəqin ki o birisi uşaq evlərindəki də vəziyyət araşdırılır və ümumən belə halın baş verməməsi üçün bir mexanizm yaradılması heç kəsdə şübhə doğurmasın. Ancaq görünən bundan ibarətdir ki, müxalifət liderlərinin biri nə dövlətin, nə xalqın əsas məsələləri barəsində heç vaxt danışmır, susmağa üstünlük verir. Heç vaxt beynəlxalq təşkilatları, xarici dövlətləri Qarabağ məsələsi barəsində hərəkət etməyə çağırmayıb, heç vaxt bir şəhidin belə yas mərasimində iştirak etməyib, heç vaxt dövlətin şəhid ailələri, qazilərin, veteranların problemlərinin həlli ilə bağlı gördüyü işə münasibətini bildirməyib.

O gözləyir ki hansısa bir insident baş versin və həmin insidenti özünün fəaliyyətinin əsas məqsədinə çevirsin. Bu artıq bloggerlikdir, bu artıq hansısa baş vermiş hadisədən özü üçün siyasi xal yığmaqdır. Əli Kərimli bugün bununla gündəmdə qalmaq istəyir. Niyə o dövlət suverenliyi günü ilə bağlı mövqe bildirmədi? Niyə Əli Kərimlinin Xankəndində Nizami Gəncəvi adına 4 saylı orta məktəbin fəaliyyətə başlaması və artıq 276 şagirdin orada təhsil almasını gündəmə gətirmədi? Niyə bugün məktəblərin müasir səviyyədə tikilməsi onun diqqətində deyil? Niyə cənab Prezidentin müharibə veteranlarının təhsil haqqının dövlət hesabına ödənilməsi, eyni zamanda təhsil krediti fondunun yaradılması məsələsinə toxunmur? Bu bir daha göstərir ki, Azərbaycan dövləti Əli Kərimli və o sayaq insanların hay-küyü ilə deyil, əksinə cəmiyyətin real problemləri ilə məşğuldur, onları həll edir, gələcəyə planlar qurur, hardasa bir hadisə baş verirsə onu tez diqqətə götürərək o məsələnin həll edilməsinə çalışır. İnanıram ki, həmin Əli Kərimlinin bugün gündəmdə qalmaq üçün toxunduğu uşaq evində problem həll ediləcək, orada vəziyyət qaydasına düşəcək. Amma Əli Kərimli bundan sonrakı bəyanatlarda vəziyyəti qaydasına düşmüş uşaq evi haqqında heç vaxt danışmayacaq”.

***Ayşən Vəli***

# Türkiyəli ekspert: Paşinyanın qeyri-səmimi mövqeyi Azərbaycanla sülh prosesini gecikdirir

***“Ermənistanın baş naziri Nikol Paşinyanın 2020-ci ildən başlayaraq qeyri-səmimi mövqe tutması Azərbaycanla sülh danışıqlarının effektivliyini ləngidir.” Bu fikri UDİAD Ankara Diplomatik Araşdırmalar Cəmiyyəti sədrinin müavini Mehmet Gökhan Özçubukçu UHA agentliyinin dərc etdiyi “Türkiyə-Azərbaycan perspektivi Qafqaza sülh gətirəcəkmi?” sərlövhəli analitik məqaləsində bildirib.***




Onun sözlərinə görə, Ermənistan hakimiyyətinin Azərbaycanla dövlət sərhədini tanımağa hazır olduğunu bəyan etməsi Cənubi Qafqazda sülhü daha əlçatan edir. Lakin rəsmi İrəvanın Fransa kimi qeyri-regional aktorları Bakı ilə dialoqa cəlb etmək cəhdləri sülh prosesinin effektivliyinə mənfi təsir göstərir. “44 günlük müharibədə qazanılan Qələbə Cənubi Qafqazda strateji qüvvələr balansını dəyişdirərək, regionun bütün ölkələri üçün yeni imkanlar açdı”, - deyən türkiyəli ekspert Ermənistanın işğal etdiyi torpaqların azad edilməsini “ən vacib məsələ” adlandırıb və qeyd edib ki, bu, Azərbaycanın 30 illik müstəqillik tarixində ən mühüm hadisədir.

UDİAD rəhbərinin müavini bildirib: “Bölgədə uzunmüddətli sülh və sabitlik üçün real şans var ki, bu da Ankaranın xarici siyasət prioritetlərindən biridir. Türkiyə Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanmasını Cənubi Qafqazda uzunmüddətli sabitliyə doğru yeganə mümkün addım hesab edir”. O qeyd edib ki, tarixi nöqteyi-nəzərdən də Azərbaycanla Ermənistan arasındakı münasibətləri Türkiyə-Ermənistan məsələlərindən təcrid etmək düzgün deyil. “Ankara regiona sülh və sabitlik gətirməyə çalışan Bakı və İrəvan dialoqundan kənarda qala bilməz”, - deyə Özçubukçu bildirib.

Ekspert Türkiyənin 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın ədalətli mövqeyinə açıq dəstəyini xatırladıb. “Türkiyənin Cənubi Qafqazdakı geosiyasi təşəbbüsləri türkdilli dövlətlərdə diqqətlə izlənilir və bu, Ankara ilə əməkdaşlığın təhlükəsizlik sektoru üçün real faydalarla əlaqəli olduğunu açıq şəkildə nümayiş etdirir. Bunun nəticəsidir ki, son bir neçə ildə Türkiyənin Qazaxıstan və Özbəkistanla tərəfdaşlığı intensivləşib. Bu, birgə hərbi təlimlərdə və kəşfiyyat məlumatlarının mübadiləsində özünü göstərdi. Orta Asiya ölkələrində Türkiyə istehsalı olan pilotsuz uçuş aparatlarına maraq xeyli artıb”, - deyə UDİAD nümayəndəsi sözlərinə davam edib.

Türkiyəli ekspert İrəvanın regional kommunikasiyaların açılması məsələsində destruktiv mövqeyinə diqqət çəkib və vurğulayıb ki, bu, Azərbaycanla sülhün əldə olunması prosesini ləngidir. UDİAD rəhbərinin müavini qeyd edib ki, Ermənistanın hazırkı rəhbərliyi Qərbin, xüsusən də ABŞ-ın dəstəyini qazanaraq Moskvadan uzaqlaşır, Rusiya tərəfinin kommunikasiya yollarında təhlükəsizliyi təmin etmək hüququnu tanımaqdan imtina edir. O əlavə edib: “Əslində, Vaşinqton İrəvanın köməyi ilə Moskvanın regionda təsirini azaldır və Rusiya Federasiyasından yan keçərək, Mərkəzi Asiya ölkələrindən özünə yol açmağa çalışır”.

# İcma: “Dağlıq Qarabağ məsələsi”nin hələ də həll olunmadığını düşünənlər kökündən yanılırlar

***Bəzi xarici qüvvələrin təhriki ilə Ermənistandakı revanşist qüvvələr və erməni diasporu “Dağlıq Qarabağ məsələsi”nin guya həll edilmədiyinə, hələ də açıq qaldığına dair kampaniyalarını intensivləşdiriblər. Bu yanaşma, eləcə də Ermənistan tərəfinin Azərbaycanın ərazi bütövlüyünə təhdid törədən həmin elementlərə qarşı hərəkətsizliyi, sürətlə silahlanması, konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını çıxarmaqdan imtina etməsi ciddi narahatlıq doğurur. AZƏRTAC xəbər verir ki, bu sözlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.***

“Bu baxımdan, qətiyyətlə xatırlatmaq istəyirik ki, “Dağlıq Qarabağ məsələsi”nin hələ də həll olunmadığını düşünənlər kökündən yanılırlar. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini birdəfəlik bərpa edib və bu, əbədidir və dönməzdir. Əslində, həll olunmamış məsələ, Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri qayıtmalarıdır. Hələ açıq qalan məsələ məhz Qərbi Azərbaycana qayıdış məsələsidir. Qərbi Azərbaycan İcması bu yolda öz səylərini ardıcıl şəkildə davam etdirəcək.

Biz Ermənistan hökumətindən və məlum revanşist dairələrdən bu təhlükəli yoldan əl çəkməyi tələb edirik”, - deyə İcmanın bəyanatında vurğulanıb.

# Ekoloji tarazlığa daha bir töhfə

## *Bakının "Gənclik" parkında ağacəkmə aksiyası keçirilib*







Sentyabrın 23-də Bakının Xətai rayonundakı "Gənclik" parkında ağacəkmə aksiyası keçirilib. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva və ailə üzvləri tədbirdə iştirak ediblər.

Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin və COP29 könüllülərinin qatıldığı aksiyada 1000 ədəd Eldar şamı ağacı əkilib. Qeyd edək ki, "Gənclik" parkı Heydər Əliyev Fondunun təşəbbüsü ilə salınıb. Ərazisi 43 hektar olan parkda yaşıllıq zolaqları ilə yanaşı, əyləncə və istirahət sahələri yaradılıb.

Xatırladaq ki, 2019-cu il noyabrın 11-də "Gənclik" parkı yeni salınarkən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak etmişlər.

Dövlətimizin başçısı bir zamanlar baxımsız olan bu ərazidə abadlaşdırma işlərinin aparılması ilə bağlı müvafiq tapşırıqlar vermişdi.

2021-ci il avqustun 26-da istifadəyə verilən "Gənclik" parkı insanların rahat istirahət ünvanı olmaqla yanaşı, eyni zamanda, paytaxtın ekoloji mühitinə öz töhfəsini verir. Onu da qeyd edək ki, Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Fond ölkəmizdə yeni yaşıllıqların salınması və mövcud yaşıllıq sahələrinin qorunması üzrə müxtəlif layihələr icra edir. "Gənclik" parkı ərazisindəki budəfəki ağacəkmə aksiyası isə ekoloji tarazlığa daha bir töhfə oldu.







# "Müttəfiqlik münasibətlərimiz bütün sahələrdə uğurla inkişaf edir"

## *Baş nazir Əli Əsədov Türkiyənin Ali Təhsil Şurasının sədri ilə görüşüb*

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 23-də Türkiyə Respublikasının Ali Təhsil Şurasının sədri Erol Özvarla görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

Təhsil sahəsində əlaqələrin dinamikası xüsusi vurğulanaraq, iki ölkənin ali təhsil müəssisələri və elmi-tədqiqat mərkəzləri arasında uzunmüddətli səmərəli əməkdaşlığın nəticələri təqdir edilib. Türkiyə-Azərbaycan Universitetinin (TAU) yaradılmasının əhəmiyyəti qeyd olunub, layihədə iştirak edən universitetlərin iki ölkənin aparıcı ali təhsil müəssisələri olduğu xüsusi vurğulanıb.

Qəbul nəticələrinə əsasən, 2024-2025-ci tədris ilindən fəaliyyətə başlayan TAU-da kompüter mühəndisliyi, sənaye mühəndisliyi və qida mühəndisliyi ixtisasları üzrə ümumilikdə 90-a yaxın tələbə təhsil alacaq.

Görüşdə Türkiyə-Azərbaycan Universitetinin fəaliyyəti ilə bağlı cari məsələlər, həmçinin iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub. Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, həmçinin Türkiyənin aparıcı ali təhsil müəssisələrinin rektorları və Azərbaycan Texniki Universitetinin rektoru görüşdə iştirak ediblər.

***BMT Baş Assambleyasının yüksək səviyyəli həftəsini açan Gələcək Sammiti sentyabrın 22-23-də Nyu-Yorkda keçirilib. 130-dan çox dövlət və hökumət başçısı “insanlar və planet üçün daha yaxşı gələcəyin” necə təmin olunacağını müzakirə edib. Beynəlxalq təhlükəsizlik və münaqişələrin həlli, rəqəmsal inkişaf, bərabərsizliklə mübarizədən danışılıb və ən mübahisəli mövzulardan biri də BMT Təhlükəsizlik Şurasının islahatları olub. Məlumata görə, üzv ölkələr arasında fikir ayrılıqları səbəbindən sammitin gözlənilən nəticəni verəcəyi müəmmalı görünür.***

# BMT-79: ya hər şey, ya da heç nə



Nyu Yorkda keçirilən Gələcək Sammitində nələr müzakirə olunub?

Gələcək Sammit BMT-nin baş katibi Antonio Quterreşin təşəbbüsü ilə keçirilib. İki gün davam edən tədbirin gündəliyi çox geniş və son dərəcə iddialı olub. Sammit iştirakçıları bəşəriyyəti narahat edən demək olar ki, bütün məsələləri müzakirə etməyə dəvət olunub: beynəlxalq sülh və təhlükəsizlikdən tutmuş qlobal idarəetmə islahatlarına, insan hüquqlarına, iqlim böhranına və gender bərabərliyinə qədər. Sammiti müşayiət edən görüşlərə yüksək rütbəli məmurlarla yanaşı, çoxlu sayda qeyri-hökumət sektorunun nümayəndələri (ümumilikdə təxminən 7 min nəfər) dəvət olunub.

Tədbirin ilk günü Gələcək üçün Paktın, eləcə də ona əlavələrin - Qlobal Rəqəmsal Sazişin və Gələcək Nəsillər haqqında Bəyannamənin qəbulu ilə yadda qalıb. 30 səhifəlik Gələcək Paktı dövlətlərdən aclıq və yoxsulluq, bərabərsizlik, beynəlxalq münaqişələr və iqlim dəyişikliyi kimi problemlərin həlli üçün “əllərində olan bütün vasitələrdən” istifadə etməyə söz vermələrini xahiş edir. BMT-nin Baş katibi hökumətləri bütün bu məsələlərin həlli üçün “cəsarətli addımlar” atmağa çağırıb.

“Hər şeyin xeyrinə, hər pisə qarşı” ruhunda tərtib edilmiş bu cür bəyannamələrin praktiki əhəmiyyəti bir çox müşahidəçilər arasında suallar doğurub, lakin Antonio Quterreş təkid edib ki, dövlətlərin pakti imzalamaması “faciə” olardı. Eyni zamanda, o, BMT-nin bəzi strukturlarının zamandan geri qaldığını və yenidən işə ehtiyac duyduğunu etiraf edib. Bu cür strukturlar arasında paktda Baş katibin fikrincə, “daha ədalətli və təmsilçi” olmalı olan Təhlükəsizlik Şurası da qeyd olunur. Antonio Quterreş bu münasibətlə deyib: ”Biz nəvələrimiz üçün yaradılan strukturlardan istifadə edərək nəvələrimiz üçün gələcək yarada bilməyəcəyik”.

Bu arada, uzun illərdir ki, BMT Təhlükəsizlik Şurasının qeyri-təmsilçiliyi və səmərəsizliyi problemi müzakirə olunub, Rusiya da islahatlara çağırıb, lakin hələlik bu istiqamətdə konkret addımlar razılaşdırılmayıb. Gələcək Sammitin əsas yekun sənədini daha iki sənəd - Qlobal Rəqəmsal Saziş və Gələcək Nəsillər haqqında Bəyannamə müşayiət edir. Birincisi rəqəmsal texnologiyalara və onların gələcəkdə tətbiqinə aiddir. Müqavilə layihəsində, həmçinin ölkələrin süni intellektdən istifadə zamanı etikaya riayət etmək, qorunan və təhlükəsiz onlayn məkanı təmin etmək istəyindən bəhs edilir. Gələcək nəsillər haqqında Bəyannamə dövlətləri öz nəsillərini müxtəlif fəlakətlərdən xilas etmək üçün öhdəlik götürməyə dəvət edir. Digər məsələlərlə yanaşı, BMT-də gələcək nəsillər üzrə xüsusi elçi vəzifəsinin yaradılması təklif edilir. Onun vəzifələrinə BMT-də gələcək nəsillərin maraqlarını təmsil etmək və müdafiə etmək, üzv dövlətlərin müraciətləri üzrə məsləhətləşmələr aparmaq və hesabatların təqdim edilməsi daxildir.

Gələcək Sammitin yaradılması ideyası BMT-yə üzv dövlətlərin Antonio Quterreşə cari və gələcək problemlər və təhdidləri həll etmək üçün gələcək qlobal əməkdaşlıq konsepsiyasını hazırlamaq xahişinə cavab olaraq yerləşdirilib. Bu çağırış BMT-nin 2020-ci ildönümündə, təşkilatın 75 yaşı tamam olanda edilib. COVID-19 böhranı fonunda qlobal təhlükələrlə mübarizə aparmağı getdikcə çətinləşdirən ölkələr arasında parçalanma problemi yaranıb. Bununla bağlı BMT-nin Baş katibi “Ümumi gündəmimiz” adlı hesabat hazırlamış və orada Gələcək Sammitin keçirilməsini və qlobal əməkdaşlıq üçün yeni konsepsiyanın formalaşdırılmasını təklif etmişdir.

Azərbaycan ardıcıl olaraq BMT-ni müasir reallıqlara uyğunlaşdırmaq zərurətindən çıxış edir, onun əsas xarakterik xüsusiyyəti çoxqütblü dünya nizamının yaranmasıdır. Eyni zamanda, transformasiyaların həqiqətən də təşkilatın səmərəliliyini və nüfuzunu artırmağa yönəldilməsi prinsipial əhəmiyyət kəsb edir. Qeyd edək ki, danışıqların koordinatorları əsasən qərblilər tərəfindən idarə olunur və dünyanın əksər ölkələrinin narahatlığını tam nəzərə almır. Nəticə etibarı ilə, sənədin hazırkı variantında çoxlu mübahisəli yerlər də var.

Söhbət üzv dövlətlərin və qeyri-dövlət subyektlərinin hüquqlarının bərabərləşdirilməsi, normaların seçmə siyahısı ilə BMT-nin hökumətlərarası mahiyyətinin aşınmasından, təşkilatın fəaliyyətində insan hüquqları komponentinin vurğulanmasından, iqlim və təhlükəsizlik məsələləri arasında universal əlaqənin qurulmasından gedir. Qeyd edək ki, “Gələcəyin Paktı”nın dördüncü nəşri hazırda danışıqlar masasındadır.

Qlobal Rəqəmsal Saziş üzrə danışıqlar asanlıqla irəliləmir. Qərblilər internetin tənzimlənməsi məsələlərində monopoliyadan əl çəkməyə, dövlətləri və qeyri-hökumət strukturlarını beynəlxalq texnoloji gündəmdə qərarların qəbul edilməsində eyni səviyyəyə qoymağa çalışırlar. Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün “rəqəmsal uçurumu” tez bir zamanda aradan qaldırmaq üçün konkret tədbirlərin aktuallığını vurğulamaq lazımdır. Bütün bunların fonunda, bu gün Gələcək Sammitin yekun sənədləri üzrə danışıqların nəticəsini proqnozlaşdırmaq sadəcə mümkün deyil. Rusiya BMT-nin qurucu dövləti və beynəlxalq birliyin məsul üzvü kimi qlobal əksəriyyətdəki tərəfdaşları ilə birlikdə çoxqütblü dünya nizamını qorumaq üçün səylərini davam etdirəcəyini açıqlayıb. Bəs digər qurucular?

**V.VƏLİYEV**



# Dünyamızın axırına çıxırıq

**Elçin Bayramlı**

***Son illərdə dünya ölkələrində anomal iqlim dəyişməsi və təbii fəlakət hallarının sayı və gücü daha da artıb. Planetin ağciyərləri- çox nəhəng meşə sahələri yanıb getdi, buzlaqların əriməsi sürətlənib, dünyada ümumi tempratur getdikcə artır, torpaqlar GMO əkinlər və dərmanlarla zəhərlənir, su mənbələri çirklənib, atmosferə atılan zəhərli qazların həcmi dəfələrlə çoxalıb. Nəticədə, təbii fəlakətlər və iqlim dəyişiklikləri sürətlənib. Çaylarda, göllərdə quruma gedir, meşə sahələrində yanğınlar baş verir, torpaqlar qüvvədən düşür, hava çirkliliyi artır...***

Xeyli vaxtdır ekoloq alimlər qlobal qeyri-təbii proseslərin başlandığı haqda həyəcan təbili çalırlar. Getdikcə verilən proqnozlar da pisləşir. İqtisadi və siyasi maraqlar insanlığın taleyini təhlükə altında qoyur. Alimlərin xəbərdarlıqlarına əhəmiyyət verilmədiyindən planetdə başlayan anormal təbii proseslər artıq qarşısıalınmaz formaya keçməkdədir. Artıq soyuq ölkələrdə istiləşmə, isti ölkələrdə soyuqlaşma özünü daha qabarıq biruzə verir. Bu artıq qlobal iqlim dəyişmələridir- bəşəriyyəti məhvə sürükləyən kataklizmlərin ilk siqnalı.

Bütün bunların nəticəsində planetin orta tempraturu 2 dərəcə artıb. Bu çox ciddi təhlükə səviyyəsidir. Bu göstərici 3 dərəcəyə çatdıqda artıq qlobal kataklizmlər başlayacaq. Bu səbəbdən dünya dövlətləri bunun qarşısını almaq üçün müəyyən tədbirlər görməyə çalışırlar, istiləşmənin artımının 1.5 dərəcə səviyyəsində saxlanmasının vacib olduğunu deyirlər. Lakin maddi maraqlar sənayeni məhdudlaşdırmağa imkan vermədiyindən bu məqsədə nail olmaq qeyri-mümkün görünür.

Bəzi ekoloq-alimlərin bu fəlakətli vəziyyəti təbii proseslərlə izah etməyə çalışmalarına baxmayaraq, qlobal istiləşmədə antropogen və texnogen təsirlərin əsas və mütləq təsiri inkaedilməzdir. Əksər ekoloqlar sənayeləşmənin və avtomobillərin sayının sürətlə artmasının bunda böyük rolu olduğunu qeyd edirlər. Bundan başqa təbii resurslara təzyiq xeyli artıb. Daş kömür, neft, qaz və s. yanacaq növlərinin istifadəsi, sənayenin sürətli inkişafı atmosferdə karbon qazının artması ilə nəticələnib. Ona görə də, atmosfer səthində ozon təbəqəsindən sonra karbon qazı təbəqəsi formalaşıb. Texnogen inkişaf planetin iqlimini və biostrukturunu tamamilə dəyişdirir.

Qeyd etmək lazımdır ki, ozon təbəqəsi Günəşdən gələn infraqırmızı şüaları Yer səthinə buraxır. Qanunauyğunluğa əsasən, həmin şüaların bir qismi yenidən kosmosa qayıtmalıdır. Amma karbon təbəqəsi buna imkan vermir. Beləliklə də, istixanalarda gedən proses daha böyük formatda Yer üzündə gedir, yəni planetdə “parnik effekti” yaranır.

Ən dəhşətlisi odur ki, bu problemin həlli imkanları artıq itirilmək üzrədir. Hətta bəzi alimlərin fikirlərinə görə, bu imkanlar artıq itirilib və proseslər geridönməz xarakter alıb. Çünki karbon qazının atmosferdə yaşama müddəti 100 ildən çoxdur. Bu da o deməkdir ki, hazırkı problemlərin yaranmasına səbəb ötən əsrdə atmosferə atılan tullantılardır. Deməli, sənayenin sürətli inkişafı ilə əlaqədar atmosferə atılan qazların əsl təsiri hələ qabaqdadır.

Rusiya Elmlər Akademiyası Geologiya İnstitutunun alimləri qlobal istiləşməyə antropogen təsirlərin səbəb olduğunu sübut edirlər. İnstitutun apardığı tədqiqatlar iqlim dəyişikliyinin təbii resurslara təzyiqin artması, planetin kimyəvi balansının dəyişdirilməsi və qlobal ekoloji böhran nəticəsində yarandığını göstərir.

Maraqlıdır, dünya ölkələri bu prosesin qarşısını almaq üçün hansı tədbirləri həyata keçirir? Məlumdur ki, yanacağa qənaət etməklə və enerji effektivliyini, həmçinin alternatin enerjiyə keçməyi sürətləndirməklə dolayısı yolla istilik effekti yaradan qazların miqdarını azaltmaq mümkündür.

ABŞ atmosferə atılan tullantıların miqdarına görə liderdir. Bu dövlətin dünya ekologiyasının korlanmasında rolu təkbaşına 40 faiz təşkil edir. Bu gün ABŞ, Rusiya, Britaniya, Fransa, Yaponiya, Çin, Hindistan kimi böyük sənaye ölkələri bəşəriyyətin təhlükəsizliyini şübhə altına qoyur.

Bir sözlə, siyasi və iqtisadi maraqlar iqlim dəyişmələrinin qarşısını ala biləcək tədbirlərin həyata keçirilməsini əngəlləyir və bütün canlı aləmin taleyini təhlükə altına qoyur.

Ətraf mühitin təmizliyinə nail olmaq üçün hökumətlər iqtisadi gözləntiləri azaltmalıdır. Təbii ki, iqtisadiyyatın inkişafını tamamilə dayandırmaq olmaz. Elə iqtisadi sahələr var ki, orada təmiz texnologiyadan istifadə edilir. Ağır sənayedə- metallurgiya, aliminium istehsalı və s. sahələrdə isə köhnə texnologiyalardan istifadə edilir, heç yeniləri arasında da effektlisi yoxdur.

Ekoloqlar bərpa olunan enerji resurslarından istifadəyə üstünlük verilməsini tələb edirlər. Bundan başqa, GMO əkinlərin, bakterioloji, kimyəvi silahların sınaqlarının, plastik istehsalının dayandırılması kimi tələblər var. Hazırda sənaye tələbatdan xeyli artıq məhsul istehsal edir ki, bu da həm planetimizin resurslarını tükəndirir, həm də ekologiyanı korlayır, nəticədə də müxtəlif xəstəliklər çoxalır. Ümumiyyətlə, son vaxtlar çox qorxulu proqnozlar səslənidirilir. Alimlərin fikrincə, təbiətə amansız divan tutulması dayandırılmasa, yaxın zamanda planeti və bütün canlıları böyük fəlakətlər gözləyir

**2012-ci ildə Journal of Marital and Family Therapy (ABŞ) jurnalında dərc edilən araşdırmaya görə, ən azı bir dəfə həyat yoldaşlarına xəyanət edən evli kişilərin nisbəti 22%, qadınların nisbəti isə 14% təşkil edir. Evli kişilər və qadınlar arasında fiziki və ya emosional xəyanət nisbəti: 41%-dir.**

# Qadınlar və kişilər niyə xəyanət edir?



Türkiyədə 2011-ci ildə 1004 nəfərin iştirakı ilə aparılan araşdırmanın nəticələrinə görə, türk kişilərinin dörddə birindən çoxu, türk qadınlarının isə yüzdə 11-i partnyorlarına sadiq deyil.

## Müasir çağda qadınlar keçmişlə müqayisədə daha çox xəyanət edir?

Dünyadakı terapevtlərin təcrübələri bu istiqamətdədir. Tədqiqat nəticələrinə cavab da müsbətdir. Məsələn, ABŞ-da aparılan araşdırmaya görə, son 20 ildə qadınların xəyanətində 40 faiz artım var. Kişilər hələ də qadınlardan daha çox xəyanət edirlər, lakin gender fərqi əsasən maliyyə müstəqilliyi, işin təmin etdiyi ictimailəşmə (kişi və qadın aldatmalarının ən azı 35%-i iş yoldaşları ilə olur) və sosial medianın yayılması səbəbindən daralır.

1000 nəfərlə sorğu üsulu ilə aparılan araşdırmanın nəticələrinə görə, xəyanət hallarının ən çox 39 yaşında baş verdiyi müəyyən edilib.

İngiltərədə araşdırma aparılaraq evlilik zamanı xəyanətlərin ən çox baş verdiyi illər və yaşlar müəyyən edilib. Nəticələrə görə 20, 30 və 40 yaşlarınızın son illəri aldatma üçün ən riskli dövrlərdir. Xüsusilə 19-29-39 və 49 yaşları aldatma üçün ən çox rast gəlinən yaşlardır.

Araşdırmada insanların xüsusilə bu yaşda "təzə həyəcan" axtarmağa və variantları qiymətləndirməyə daha açıq olduğu ifadə edilib.

Mütəxəssislərə görə, klimaks qadınların xəyanət istəyini azaldır. Klimaks keçirən qadında psixoloji problem yoxdursa, aldatmağa meylli deyil. Türk mütəxəssis psixoloq Zəfər Akıncı, "Andropozda olan kişilər kişiliklərini itirməkdən qorxurlar. Hormonları azalmağa başlayanda və 40 yaşına çatdıqda "mən kişiyəm" deməyə başlayırlar. Bu, əlavə performansagətirib çıxarır" dedi.

## Xəyanətə meyil 40 yaşdan sonra artır

Aldatmanın ən çox 39 yaşda olması fikri ilə razılaşmayan psixoloq Zəfər Akıncı "40 yaşından sonra aldatmağa meyl artır, bunu artıran əslində özünü sübut etmək meylidir" deyib. Akıncı xəyanətin qazanılmış bir xəstəlik olduğuna diqqət çəkir və bir araşdırmaya görə, o bildirib ki, xəyanət edən insanlar adətən aldatdıqları adamı öz yaxın ətraflarından seçirlər.







**Bir araşdırmada hansı peşələrin daha çox xəyanət etdiyi deyilir:**

Həkimlər: Araşdırmalara görə həkimlər həyat yoldaşına ən çox xəyanət edən peşələr arasındadır.

Tibb bacıları: Kişi həkimlərin xanımlarını ən çox aldatdığı peşə tibb bacısıdır.

Rəhbər köməkçiləri: Araşdırmalara görə, həyat yoldaşlarını ən çox aldadan peşələr arasında icraçı köməkçilər də var.

Evdar qadınlar: Ərinə ən çox xəyanət edən qadınların evdar qadınlar olduğu müəyyən edilib.

Hüquqşünaslar: Belə çıxır ki, inandırma qabiliyyəti yüksək olan vəkillərin də aldatma potensialı yüksəkdir.

Yanğınsöndürənlər: yanğınsöndürmə xidməti sektorunda çalışan insanların həyat yoldaşlarından boşanmalarının səbəbi adətən xəyanətdir.

Maliyyə sektoru: Yüksək gəlirləri, sıx səyahət cədvəlləri və ünsiyyət bacarıqları səbəbiylə maliyyə sektorunda kişilər arvadlarını aldadırlar.

Polis əməkdaşları: Polis əməkdaşlarının aldatmalarına səbəb kimi nizamsız iş saatları və stress göstərilir.

Müəllimlər: Siyahıdakı ən təəccüblü peşə. Üstəlik, bu peşədə olan qadınların xəyanət nisbəti daha yüksəkdir.

İT işçiləri: İnternet aldatmaq və ya aldanmaq üçün ən böyük səbəbdir. İT işçiləri də bu siyahıdadır, çünki onlar internetdə hamıdan çox vaxt keçirirlər.

"Journal of Marital and Family Therapy" jurnalının araşdırmasına görə, evlilik də daxil olmaqla istənilən münasibətdə xəyanətin nəticələri kişilər və qadınlar üçün demək olar ki, bərabərdir: kişilər üçün 57%, qadınlar üçün 54%.

Cütlüklərlə işi ilə tanınan Qottmanın fikrincə, evliliklərində həm kişilərin, həm də qadınların cinsəllikdən, sevgidən və ehtirasdan razı olub-olmamalarını təyin edən amil aralarındakı dostluğun keyfiyyətinin 70%-ni təşkil edir.

Evlilik məsləhətçisi Gary Neuman həyat yoldaşına xəyat edən 200 evli kişiyə "Niyə aldadırsan?" sualını verdi. Cavab qadınların aldatmasının əsas səbəbləri ilə eynidir və bu, Gottmanın tapıntılarını dəstəkləyir: kişilərin 48%-i emosional olaraq məmnun olmadıqlarını bildirib. Yalnız 8% cinsi əlaqənin ən vacib səbəb olduğunu söyləyir.

## Aldatma sonrası psixologiya qadın və kişi arasında necə fərqlənir?

Xəyanətin ağrısı çox vaxt ölümdən də pis ola bilər. Tipik bir yas prosesi baş verir. Xəyanət nəticəsində yaranan stress davam edərsə və xroniki hal alırsa, həlli çətinləşir. Şəxs posttravmatik stress pozğunluğunun əlamətlərini göstərə bilər. Qadınlarda TSSB nisbəti 35% -dir. Simptomlar: Qəzəb, utanc, vəsvəsə, ağrılı düşüncələr, şəkillər, dəyərsizlik, müqayisə, hipersayıqlıq, oyanma, geri dönüşlər. Qadınlarda böyük depressiya və narahatlıq ola bilər.

"Ən çox xəyanət edənlər alman qadınları və italyan kişiləridir"

Ifop-un araşdırmasına görə, bu ölkələr arasında "Alman qadınları" yüzdə 43 ilə ən çox digərlərini aldadır. Almaniyadan sonra 37 faizlə Fransa, 33 faizlə İtaliya və İngiltərə gəlir. Ərlərinə ən çox sadiq olan qadınlar 30 faizlə ispanlardır.

Digər tərəfdən qadınların ən sadiq olduğu ölkələr İtaliya və İspaniya da yüzdə 55 və yüzdə 50 ilə kişilərin ən çox aldatdığı ölkələrdir.

Kişi və qadın arasında xəyanətdə ən kiçik fərq olan ölkə Almaniyadır.

## Niyə həyat yoldaşları bir-birini aldadırlar?

Sorğuda həm də kişilərin və qadınların aldatmasının səbəbləri soruşulub. Alınan cavablarda aldatma səbəbləri kimi həmin şəxsin özünü partnyorundan daha gözəl və ya yaraşıqlı sayması, iqtisadi və sosial səviyyəsinin daha yüksək olması, böyük şəhərlərdə yaşaması və cinsi həyatından razı olmaması göstərilir.

*Ayşən Vəli*

ARAŞDIRMA

# “Onların əsas qayəsi Ermənistana dəstək vermək deyil”



*“Qərb və rəsmi İrəvan indi Qarabağdan guya deportasiya olunmuş ermənilər məsələsini gündəmə gətirir”.* ***Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib. O bildirib ki, burada biz sinxronluğu görürük: ”Həmahəng səylərin artıq olması mövcudluğu heç kəsdə şübhə doğurmur.***

Bir yandan Paris, bir yandan Brüssel, bir yandan Ottava, bir yan-



POLİTOLOQ MÜNASİBƏT BİLDİRDİ

dan da Vaşinqton kordinasiya olunmuş, əlaqələndirilmiş şəkildə Azərbaycana təzyiqlərini artırırlar. Bu mövzuda sual ortaya çıxır ki, bu, nə ilə bağlıdır? Əslində aydın məsələdir ki, Ermənistanın zəifliyi, gündəlikdə olan məsələlərlə laqeyd davranması məhz Qərbin müdaxilələri ilə bağlıdır. Çünki onlar çalışırlar ki, Ermənistana guya dəstək göstərsinlər. Ancaq onların əsas fikri Ermənistanı bataqlıqdan çıxarmaq deyil, Ermənistan vasitəsilə Azərbaycana, Türkiyəyə, Rusiya, İrana təzyiq göstərmək, yeni bölgədə mövcudluqlarını təmin etməkdir. Bu onların strateji hədəflərindən biridir. Ona görə də bu istiqamətdə Ermənistan sanki lal-dinməz oturub, heç bir səy göstərmir. Azərbaycanın təşəbbüslərinə gecikmiş cavablar verir və onların da vaxtı ötür. Görürük ki, onlar nə dərəcədə süründürməçilik siyasətini həyata keçirirlər. Bu onunla bağlıdır ki, Qərb onlara dəstək göstərir. Bildirir ki, tələsməsinlər, onların problemlərini həll edəcəklər.

Bu məsələlərin hamısının başında kollektiv Qərbin Rusiya və İran sərhədlərinə yaxın gəlməsidir. Guya, onlar Türkiyə ilə yaxındırlar, ancaq görürük ki, Türkiyədə də gözləri var. Ermənistan ərazisində yerləşdirilmiş guya sülhməramlı








müşahidəçilər nə işlə məşğuldurlar? Onların burada olduğu il ərzində bir neçə dəfə bölgədə toqquşmalar, atışmalar olub, atəşkəs pozulub. Ermənistan hətta Kəlbəcərə atəş açıb. Niyə onların səsi çıxmır, nəyi müşahidə edirlər? Səsləri çıxmır, ona görə ki, onların binokl diplomatiyası var, digər tərəfdən də Rusiya mənbələri bu yaxınlarda bildirdi ki, sülhməramlı adı altında çıxış edən keçmiş jandarmlar, kəşfiyyatçılar üç ölkənin xüsusi obyektlərinə nəzarət edirlər. Söhbət Azərbaycan, Rusiya və İrandan gedir. Türkiyənin adı burada çəkilmir, amma əslində Türkiyənin özü ilə də bağlı məkrli planları var. Bu istiqamətlərin hamısında Azərbaycan dövləti öz müşahidələrini davam etdirir. Bölgədə təhlükəsizlik mexanizmlərinin işlək vəziyyətdə olmasını təmin edirik. Bu, çox vacib məsələdir. Çünki istənilən məqamda onlar planlarını həyata keçirməkdən ötrü, hətta təxribatlara əl atacaqlar. Heç də labüd deyil ki, erməni əsgəri, ya zabiti Azərbaycana atəş açsın. Çox güman ki, xaricdən gələn bir qrup özləri vəziyyəti qarışdıra bilərlər ki, onlar öz maraqlarını burada yerləşdirsinlər. Onların əsas qayəsi Ermənistana dəstək vermək deyil, onlar Ermənistana vəd verirlər. Ermənistanı yanlış yollara sövq edirlər ki, öz işlərini görsünlər. Əgər onlar erməni xalqı üçün yanırlarsa, vaxtında proseslərdə humanitar tərzdə hərəkət edərdilər. Nə Ermənistanda obyekt tikilir, nə Qarabağda obyekt tikmədilər. Sadəcə seperatçılara dəstək verirdilər ki, onların müdafiə qabiliyyəti üstün olsun. Bu, açıq-aşkar Azərbaycanın milli maraqlarına zidd mövqe idi. Ona görə təsadüfi deyil ki, Amerikanın konqresində, senatında Azərbaycanı tənbeh etməkdən danışırlar”.

Onun sözlərinə görə, bunlar hamısı düşünülmüş siyasətin müxtəlif çalarlarıdır: ”Ancaq mahiyyət eynidir, Azərbaycana təzyiq göstərmək, Azərbaycanın yerini daraltmaq. Gözəl bilirlər ki, Azərbaycan Qafqaz bölgəsində təhlükəsizliyin əsas sütunlarından biridir. Bu sütunu zəiflətmək istəyirlər, digər tərəfdən də təzyiqlərini artırırlar ki, bizi öz siyasətlərinin tərkib hissəsinə çevirsinlər. Bu da olan iş deyil. Çünki Azərbaycan dövləti suverendir, Ermənistandan fərqli olaraq. Əgər Ermənistan Azərbaycan kimi suveren olsa idi, biz çoxdan dil tapmışdıq, çoxdan sülh müqaviləsinə imza atmışdıq. Ermənistan bilərəkdən bu proseslərdə öz ixtiyarını özgə qüvvələrə verib. Ona görə də burada təhlükələr də var. Ancaq Azərbaycan bu proseslərin hamısında nəzarəti öz diqqətində saxlayır və heç bir məkrli plan həyata keçməyəcək”.

***Söylü Ağazadə***



**Mətanət Məmmədova**

## Adı dəli, xəstə, tərbiyəsiz, oğru qoyulan uşaqlar...

Bu ad onlara bəzi Uşaq evlərində verilir. Özünü təmizə çıxarmaq üsullarından biri olaraq dövlətin himayəsinə sığınan uşaqlara həmin dövlət müəssisəsində çalışan bəzi aqressiv müəllimlər və texniki işçilər tərəfindən verilir bu adlar. Dövlətin yaratdığı şəraitdən istifadə edən, maaş alan və vəzifəsinin öhdəsindən gələ bilməyənlər tərəfindən...

Qapalı müəssisə sayılan uşaq evlərində yaşamağa məhkum olan bu uşaqlar görəsən oğurluğu harada öyrənirlər. Bəlkə böyüklərdən? Uşaqların yeməyini, ərzaq məhsullarını evinə daşıyan böyüklərdən...

Atıldığı, satıldığı bir gündən uşaq evinin himayəsində olan uşaqlar nə üçün psixoloji problemli olurlar? Axı adətən ailələrdə qalmaqallar baş verəndə, ata-ana arasında hər gün dava-dalaş olanda uşaqlar bu cür zədə alır. Görəsən uşaq evlərində mehriban, səmimi bir mühit varsa, uşağın psixoloji problemi necə yaranır?

Uşaq evində uşaq necə tərbiyəsiz ola bilir? Gözünü açıb heç bir söyüş, şillə-şapalaq görməyən uşaq necə tərbiyəsiz böyüyə bilir ki? Əgər uşaq evlərindəki müəllim və texniki heyət uşaqlara söyüş söymürsə, ata-analarının əməli ilə ittiham etmirsə, onları bu müəssisələrə gətirənlərə allı-güllü qarğışlar ünvanlamırsa, uşaq söyüşü haradan öyrənir?

Uşaq uşaq evlərində necə olur ki, xəstə olur? Həm əqli, həm fiziki cəhətdən nə üçün xəstə olur? Bəlkə xəstə hesab olunur? Bəs əgər onun qayğısına vaxtı-vaxtında qalınırsa, xəstələnən kimi başının üstünü kəsən bir dayəsi, müəllimi varsa, o, nə üçün xəstə olur. Belə isə bu xəstəlik nə üçün onun sümüklərinə işləyib axırda əqli xəstəliyinə səbəb olur?

Bəs, uşaq nə üçün uşaq evindən qaçır? Hara qaçır bu uşaq? O məgər qaçmağın nə olduğunu anlayırmı? Belə bir deyimimiz var: kimsə isti ocağını tərk etməz. Uşaqlar nə üçün isti yuvalarını tərk edib, bu istiliyi hara gedəcəkləri məlum olmayan yerlərdə axtarır? Bu, lap evindən qayınananın əlindən baş götürüb küçələrə üz tutan gəlinlərin məsələsinə oxşayır. Deməli, uşaq müəssisələrində uşaqlara bəzi qayınanaların gəlinlərinə etdiyi sitəm edilir ki, onlar isti yuvalarından qaçmaq məcburiyyətində qalır.

Ötən həftə Xətai rayonunda yerləşən 3 nömrəli Uşaq evinin 13 yaşlı sakini Ramalın məlum efirdə uşaq evindən qaçma səbəblərini söyləməsi, ağlaya-ağlaya danışması ilə bu yazını yazmaq qərarına gəldim. Uşaq evində döyüldüyü və təhqir edildiyi üçün qaçıb və 8 gündür, küçədə qalan uşaq deyir: “Mən orada qalmaq istəmirəm. Bizi orada asılqanla, bərk əşyalarla döyürlər. Özü də bizi cəzalandırmağı uşaq evinin digər sakinlərinə tapşırırlar. Məsələn, orada Elvin adlı oğlan var. Müəllimə döydürmək istədiyi uşaqları ona təhvil verir. Deyir, Elvin, get filankəsin ayağını sındır. O da icra edir. İlahə müəllimə 3 uşağı ikinci mərtəbənin pəncərəsindən atırdı.

Müəllimələr anamızı söyürdülər. Tərbiyəsiz şeylər göstərirdilər. Mən bu dəfə ayaqyolunun pəncərəsindən atlanıb qaçdım. Nəzarətçilər həmin vaxt dəhlizdə əyləşib çay içirdilər”.

Bundan öncə də uşaq evindən qaçan Ramal bildirir ki, bunu etməyə məcbur idim. Çünki bizi orada döyüb, təhqir edirlər. Bunu əsasən ayaqyolu və dəhlizdə edirlər. Həmin yerlərdə kamera yoxdur. Axşam yeməyində quru çörək, makaron verirlər. Hər gün eyni yeməyi yeməkdən bezmişik. Ətin içindən qurd çıxır. Bizi onu yeməyə məcbur edirlər. Təzə müdirimiz Gülnarə xanım bunlara göz yumur. Mən ora qayıtsam, məni bərk vuracaqlar”.

Elə buradaca başqa deyim də yada düşür ki, bir ailədə vəziyyət necədirsə, bunu həmin ailədəki uşaqdan soruş. Elə bu mənada da Ramalın söylədiyi fikirlər adamı düşünməyə vadar edir. Ona görə ki, birincisi, uşaqlar yalan danışmır, ikincisi isə yuxarıdakı deyimə əsasən, uşaq evi bir ailədirsə, bu uşaq ailədəki münasibətləri hər kəsdən yaxşı görür və bilir. Buna görə də Ramalın söylədi fikirlərdə həqiqətin var olmaması mümkünsüzdür.

Və sonra eşidirik ki, Ramal özünün istəyinə əsasən və mövcud psixoloji vəziyyəti nəzərə alınaraq, artıq Sosial Xidmətlər Agentliyin digər müəssisəsinə yerləşdirilib. Onun sosial psixoloji reabilitasiyası üçün lazımi iş aparılır.

Bu arada bir müddət əvvəl həmin uşaq evinin yeniyetmə sakini Məhəmməd Hacıyevin buradakı təminatla bağlı narazılığını bildirməsi və 1 saylı Respublika Psixiatriya xəstəxanasına yerləşdirilməsini xatırlayırıq.

Beləliklə, bu qənaətə gəlmək olar ki, 3 saylı Uşaq evində əməlli-başlı istintaq aparılmalı, burada nələrin baş verdiyi ortaya çıxarılmalı, işinin öhdəsindən gələ bilməyənlərə elə bir cəza verilməlidir ki, bu, bütün uşaq müəssisələri üçün görk olmalıdır.

Və bir də adı dəli, xəstə, tərbiyəsiz, oğru qoyulan uşaqların hüququ xüsusilə qorunmalı, bu adları onlara verənlərin, psixoloji müalicəyə ehtiyacı olduğunu iddia edənlərin özü əməlli-başlı bu müayinədən keçməyə cəlb edilməlidir.

Bundan sonra bəlkə hər şey düzələr...

# Beynəlxalq hüquq və normalardan xəbərsiz AXMAQ DİPLOMAT

*Fransanın Avropa və Xarici İşlər Naziri Stefan Sejurnenin İrəvana səfərinin erməni cəmiyyətində, ələlxüsus da siyasi elitada yüksək əhval-ruhiyyə ilə qarşıladığını müşahidə etdikdə rəsmi Parisin ermənipərəstliyinə, eləcə də bunu hayların çox yaxşı başa düşdüklərinə, adi hal kimi qəbul etdiklərinə, eləcə də bütün bunların fonunda işğalçı ölkəyə səfər edən fransalı diplomatın axmaqlığına bir daha əmin oluruq. Əmin oluruq ki, Sejurne də məhz Fransa hakimiyyətində təmsil olunan, Makronun ətrafında olan digər ermənipərəst siyasətçilər kimi haqqı, ədaləti hesaba almayan, beynəlxalq hüquq və normalardan xəbərsiz ağılsızlar, axmaq diplomatlar syahısındadır.*



### Ağılsızlığı ilə axmaqlar siyahısının ön sıralarında məhz Fransanın Avropa və Xarici İşlər Naziri də yer alır

Sejurnenin ermənipərəstliyinin biz artıq dəfələ şahidi olmuşuq. Onun ermənilərə yaltaqlandığının, yaxud da həyasızcasına həqiqətləri, reallıqları görməməzliyə vuraraq, ədalətsiz yanaşmalarının bir daha şahidi olmaq üçün İrəvana gəlişini heç gözləməyə də ehtiyac yox idi. Yəni, həmin adamın Fransanın düz paytaxtında səsləndirdiyi fikirlər artıq təsdiq edirdi ki, Stefan Sejurne qatı ermənipərəstdir və onun üçün harda olmasından asılı olmayaraq həqiqətləri təhrif etmək, reallıqları görməməzliyə vurmaq, ədalətsizcəsinə danışmaq, rəy və fikir bildirmək adi haldır və buna öyrəncəlidir. Bir sözlə, Sejurnenin ermənipərəstliyini bir daha ortaya qoyması və utanmazcasına reallıqdan uzaq mövqe sərgiləməsi bizim üçü heç də yenilik sayılmır və həmin bu fransızın biri, utanmazın bəlkə də birincisi öz utanmazlığı ilə qətiyyən bizi təəccübləndirə bilmədi. Təəccüblü ola biləcək yeganə o ola bilərdi ki, Stefan Sejurne yenə də axmaqcasına Ermənistan Respublikasına öz dəstəyini ifadə etməklə hələ də nəyə isə ümid edir və bu onun əl çəkmək istəmədiyi axmaqlığıdır. Belə çıxır ki, elə öz ağılsızlığı ilə axmaqlar siyahısının ön sıralarında məhz Fransanın Avropa və Xarici İşlər Naziri Stefan Sejurne də yer alır.

### Ermənipərəstliyi, haylara olan yaltaqlığı gözlərini elə bağlayıb ki, sanki heç nəyi doğru-dürüst görə bilmirlər

Ermənistan Respublikasına öz dəstəyini ifadə etməklə, Sejurne çox populist bəyanat verib. Bu axmaq diplomat hələ də başa düşə bilmir ki, onun dəstək ifadə etməsi ancaq populizm nümunəsi kimi qəbul edilir. Dərk edə bilmir ki, dəstək ifadə etdiyi ölkə, yəni Ermənistan bütün Qafqazda ancaq gərginlik yaradır. Bunu bilə-bilə kimə dəstək verir və bu dəstəyin axmaqlıq olduğunu anlamırmı? Bir tərəfdən sülh barədə pafosla danışmaq, digər tərəfdə də regionda gərginlik yaradan ölkəyə dəstək nümayiş etdirmək və bunu açıq-aşkar şəkildə bəyan etməyin adı ancaq axmaqlıqdır. Məntiqsiz şəkildə belə təzadlı fikirlər səsləndirən ancaq axmaq diplomatlar ola bilər və Sejurnenin də onların arasında olduğu bir daha öz təsdiqini tapır.

Sejurnenin Azərbaycanla bağlı söylədikləri də diqqəti cəlb edir və elə həmin söylədikləri belə özünün ən böyük həyasız olması ilə bərabər, xüsusən, yenə də ağılsızlığından xəbər verir. “Fransa iki ölkənin suverenliyinə və ərazi bütövlüyünə hörmət etməklə ədalətli və sabit dünya quracaq sazişin tezliklə imzalanmasının tərəfdarıdır. 1991-ci ildə Almatıda imzalanmış sənədin bütün mahiyyəti budur. Praqada da ictimaiyyətə eyni ideya təqdim olunurdu”, deyən Sejurne qətiyyən utanmaq niyyətində görünmür və deyəsən utanmazlığa alışqan bu adam ağlına gələni danışmaqla, yanlışlığa yol verməklə, axmaqlıq etdiyinin fərqində deyil. Bəldə də ermənipərəstliyi, haylara olan yaltaqlığı gözlərini elə şəkildə bağlayıb ki, nə ikiüzlü olduğunu, nə haqq-ədalətə məhəl qoymadığını, nə yalan danışdığını, ümumiyyətlə, axmaqcasına fikir bildirdiyini və bir axmaq diplomat olduğunu, yəni özünü qətiyyən görə bilmir. Məqsədimiz də bu məqamda ona yardım etmək və özünü məhz özünə göstərməkdir ki, yaxşı-yaxşı görsün, dediklərimizə əmin olsun və elə özünün timsalında axmaq diplomatın necə olduğunu gec də olsa anlasın. Fransanın Avropa və Xarici İşlər Naziri öz ölkəsinin məhz iki ölkənin suverenliyinə və ərazi bütövlüyünə nə zaman hörmət etdiyinin şahidi olub ki, belə sayıqlayır? Axı biz rəsmi Parisin belə bir niyyətinin belə olmasının şahidi deyilik və heç ola da bilmərik. Çünki bir suveren dövlətin ərazi bütövlüyünə hörmətlə yanaşan onun ərazilərinin işğalına və işğal altında saxlanmasına qətiyyən göz yummazdı və biz də o zaman nəyinsə şahidi olardıq. Yaxud da görərdik ki, işğalçı tərəfə silah-sursat verməkdən imtina etməklə, ədalətli və sabit dünya quracaq sazişin tezliklə imzalanmasının tərəfdarı kimi danışmağa az da olsa haqqı çatır, amma heç də belə deyil. Nə onun haqqında qeyd olunanlar barədə danışmağa haqqı çatmır, nə reallıq heç də onun ifadə etdiyi kimi deyil və deməli, əsassız, arqumentsiz şəkildə, həqiqətləri təhrif edərək danışır ki, buna da axmaqlıqdan savayı ad vermək olmur. Məgər tullana-tullana Ermənistana gələn Sejurne öz ölkəsinin işğalçı tərəfə silah verməməli olduğunu da olsa dərk etmir? Etmirsə, deməli, elə bundan öncə deyilənlərin hamısı ona aiddir və axmaqlığı ona şamil etməkdə zərrə qədər də yanlışlıq etməmişik.

### Həyasızlığı ilə hayları belə heyrətləndirən fransalı bu diplomat hədsiz dərəcədə axmaq təəssüratı bağışlayır

“Fransa eyni prinsiplər əsasında dövlətlər arasında sərhədin delimitasiyası prosesini də təşviq edir. Parisdə Cənubi Qafqazın sülh və əməkdaşlıq bölgəsinə çevrilməli olduğuna inanırlar”, deməklə, fransız diplomat görəsən kimi axmaq hesab edir, özünü, yoxsa onu dinləyən erməniləri? Axı dedikləri ilə reallıq üst-üstə düşmür və belə olan halda ya özünü, ya da fikirlərini dinləyən audutoriyanı axmaq yerinə qoymaq niyyəti bəlli olur. “Ermənistan sülh istəyir. Fransa və beynəlxalq ictimaiyyət sülh istəyir. Azərbaycan tezliklə COP29-a ev sahibliyi etdiyi üçün tədbirdən əvvəl həqiqətən sülhə nail olmaq istədiyini nümayiş etdirməyə borcludur. Düşünürəm ki, biz bu məsələdə sürətlə irəliləməliyik”, deyən və bununla da öz həyasızlığı ilə hayları belə heyrətləndirən Fransalı bu diplomat hədsiz dərəcədə axmaq təəssüratı bağışlayır. Mütəmadi olaraq işğalçı ölkəni silahlandıran, münaqişəyə, müharibəyə nəinki ruhlandıran, hətta sövq edən bir ölkə, onun hansı diplomatı və nə üzlə hansısa sülhdən dəm vurur? Öz həyasızlığı və axmaqlığı ilə bizim üzərimizə, Azərbaycanın üzərinəmi məsuliyyət qoymaq istəyir? Qalib ölkə olması, 44 günlük müharibədə mükəmməl qələbə qazanması fonunda sülh təşəbbüsünü irəli sürən ölkənin üzərinə məsuliyyət qoymaq niyyətinə axmaqlıq deməyib, nə deyək? Bu axmaq diplomat başa düşmür ki, “sülhə nail olmaq istədiyini nümayiş etdirməyə borcludur”, deyərək ünvanlandığı ölkə sülhün təşəbbüskarıdırsa, elə bu fakt özü sülhə nail olmaq istəyinin nümayişidir? Yəni həqiqətən də anlamır ki, sülh təşəbbüsü ilə çıxış etdikdən sonra özünü sülhə hazır tərəf kimi təqdim etməyə qətiyyən ehtiyac qalmır? Bu axmaq diplomat özünü o qədər axmaq yerinə qoyub ki, konstitusiyada Azərbaycana qarşı ərazi iddiaları ehtiva edən müddəalardan ermənilərin, rəsmi İrəvanın imtina etməli olduğunu dilə gətirmədən, üzünü Azərbaycana tutur və sülh barədə də ağız dolusu, özü də utanmadan çıxış edir. Fransızdan daha çox erməniyə bənzəyən, beynəlxalq normalardan da bu qədər xəbərsiz, bu qədər axmaq diplomatı heç təsəvvürə də gətirmək olmur...

***İnam Hacıyev***

Təhlil

# “Azərbaycan əməkdaşlıqdan yana mövqe sərgiləyir”



***“Amerika Birləşmiş Ştatları, Fransa kimi ölkələr Azərbaycana təzyiq üçün çox müxtəlif variantlardan istifadə etməyə çalışırlar ki, bunlardan da biri Qarabağ ermənilə-ri məsələsidir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Oqtay Qasımov deyib.***

O bildirib ki, 44 günlük savaş zamanı Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi ölkələr tərəfindən isterika ilə qarşılandı: ”Onlar yaranmış yeni reallıqları qəbul etməkdə çətinlik çəkdilər. Məhz bu səbəbdən Azərbaycana qarşı təzyiq mexanizmlərini işə salmağa çalışdılar. Bu müddət ərzində beş dəfə BMT Təhlükəsizlik Şurasının toplantısını çağırıb Azərbaycana qarşı qərar alınması cəhdləri də boşa çıxdığından Azərbaycana qarşı qəzəb var. Azərbaycan bu dövlətlərin Cənubi Qafqazda gərginlik yaratmaq və buranı özlərinə savaş poliqonuna çevirmək niyyətinlərinə qarşı duran əsas dövlət rolunda çıxış etdiyi üçün bu kimi vasitələrdən istifadə edirlər. Bundan sonra da etməyə çalışacaqlar”.Onun sözlərinə görə, keçən il bu antiterror əməliyyatlarına qarşı çıxsalar da, ona əngəl ola bilməyən Fransa və ABŞ Qarabağdan ermənilərin köçünün təşkilində aktiv rol almaqla sonradan bundan Azərbaycana qarşı təzyiq mexanizmi kimi istifadə etməyə çalışır: ”Amerika Konqresində keçirilən dinləmələr də məhz buna həsr olunub. Həm keçən ilin noyabrı, həm də bu ilin sentyabrındakı dinləmələr məhz Amerikanın bölgədəki konstruktiv olmayan, əksinə bölgəni qarışdırmaq, bölgədə gərginlik yaratmaq niyyətlərini özündə əks etdirən tədbirlərdir. Bu toplantılarda Azərbaycana qarşı çağırışların edilməsi də bununla bağlıdır. Təsadüfi deyil ki, məşhur Samanta Pauer keçən ilin sentyabrında Qarabağdan ermənilərin köçü ilə bağlı açıqlamasında Gorusa gələrək bildirmişdi ki, burada hesabat hazırlamağa gəlib, fakt toplayır. O zamandan Amerikanın niyyəti bəlli idi. Amma ABŞ Azərbaycana təzyiq etməklə Ermənistanı həm xilas etmək, şərtləri əsasında hansısa yarımçıq sülh müqaviləsi imzalatmaqla gələcəyə yeni münaqişə mənbəyi saxlamaq və bölgədə öz marağını təmin etməyə çalışır. Təbii ki, Azərbaycan buna getməyəcək və Amerika Birləşmiş Ştatları əgər bu cür mürtəce və destruktiv fəaliyyətini davam etdirəcəksə, Azərbaycanın da buna verəcəyi cavablar var. Sadəcə olaraq Azərbaycan Amerika və digər ölkələrlə münasibətlərin normal qalmasında maraqlıdır. Amma münasibətlərin bundan sonrakı inkişafı hər iki tərəfdən asılıdır.Azərbaycan əməkdaşlıqdan yana mövqe sərgiləyir. Amerika Birləşmiş Ştatları və ermənipərəst Bayden administrasiyası əgər bu cür anti-Azərbaycan siyasətini davam edəcəksə, təbii ki, bunun Amerika üçün müəyyən problemləri olacaq. Ən azı Azərbaycanın Amerikanın bölgədəki rolunu bloklamaq, o cümlədən kommunikasiya xətlərindən istifadə etməklə bağlı tədbirlər görə bilər. Bu da Amerikanı kifayət qədər problematik vəziyyətə sala bilər”.

**Söylü Ağazadə**

# “Qanunvericiliyin tələbləri ev tapşırıqları verilərkən nəzərə alınmalıdır”

“Ev tapşırıqları verildikdə, şagirdlərin onları hansı müddətlərdə yerinə yetirməsi imkanları nəzərə alınmalıdır”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Elşən Qafarov deyib. O bildirib ki, bu müddətlər 1-ci sinifdə (dərs ilinin ikinci yarısından etibarən) - 1 saata qədər, 2-ci sinifdə - 1,5 saata qədər, 3-cü və 4-cü siniflərdə - 2 saata qədər, 5-ci və 6-cı siniflərdə - 2,5 saata qədər, 7-ci və 8-ci siniflərdə - 3 saata qədər, 9-cu və 11-ci siniflərdə - 4 saata qədər təşkil etməlidir: ””Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nin təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 3 avqust 2012-ci il tarixli 171 saylı qərarı var. Həmin qərarda konkret olaraq göstərilir ki, birinci yarımildə ev tapşırıqları verilməsi uyğun görülmür.

Birinci siniflər üçün ev tapşırıqları ikinci yarımildən bir saatı keçməməlidir. İkinci sinifdə 90 dəqiqəni keçməməlidir. Üç və dördüncü siniflərdə 2 saatı keçməməlidir. Beş və altıncı siniflərdə 2 saat yarım, 150 dəqiqəni keçməməlidir. Yeddi və səkkizinci siniflərdə 3 saatı, doqquz və on birinci siniflərdə 4 saatı keçməməlidir.



AYDINLIQ GƏTİRİLDİ

Biz praktikada görürük ki, valideynlərin istəyi və müəllimlər də şagirdlərə normadan həddindən artıq çox ev tapşırıqları verirlər. Bu ondan irəli gəlir ki, nə müəllimlər, nə valideynlər uşaqların yaş dövrü xüsusiyyətlərini, onların yaş dövrünə uyğun olaraq fizioloji, psixoloji xüsusiyyətlərini bilmirlər. Bir çox hallarda da daha çox tapşırıq vermək, uşağın daha çox dərslə məşğul olması, guya, onun gələcəkdə savadlı olmasına gətirib çıxarır. Əslində beyin yorğunluğuna gətirib çıxarır. Bəzi hallarda da müəllimlər ev tapşırıqlarını çox verməklə və valideynlər tərəfindən də övladlarının əlavə məşğələlərə cəlb olunmasına sövq edirlər. Nəticə etibarilə şagirdlər həm psixoloji, həm fizioloji çətinliklərlə üzləşirlər. Düşünürəm ki, bu məsələ ciddi nəzarətdə olmalıdır. Qanunvericiliyin tələbləri ev tapşırıqları verilərkən nəzərə alınmalıdır”.

**Söylü Ağazadə**



**İ. Əliyev**

***Elimizdə, obamızda bir məsəl var, deyirlər: “Filankəsin gözü ayağının altını görmür”. Ya da söyləyirlər: “Filankəs qudurub”. Səbəb nədir, niyə insan qudurur və ya gözü ayağının altını görmür? Araşdıranda məlum olur ki, xəta pulun çox olmasından və ya vəzifənin yüksək olmasından yaranır. Elə ona görə də insanlar atmaca atandan sonra həmin atmacanın şərhini də verib deyirlər ki, filankəs o qədər varlanıb və vəzifə kreslosunda şişib ki, qohum-əqrəbanı saymır, dost-tanışa da salam-kəlam vermir.***

# Ya pulun, ya da “daydayın” olsun

Adət edilən və tez-tez təkrarlanan fikir də ondan ibarətdir ki, mənim pulum və ya vəzifəm olsa, filankəs kimi harın və quduğan olmaram. Başqa birisi də deyir ki, pulum olsa kasıblara, fağırlara əl tutub, yardım edərəm. Üçüncüsü isə deyir ki, çoxlu varım-dövlətim olsa, məscidlər tikərəm, yollar salaram, insanların sosial-məişət problemlərini həll edərəm. Diqqətçəkən xəyallarını, arzularını dilə gətirənlər də olur: “Pulum olsa filan şeyi alaram, filan şeyi edərəm və qohumlarımı yandıraram”. Bəzən xoruzlanıb yekə-yekə danışanlar da olur: “Pul-para xoşbəxtlik gətirmir”, “xoşbəxtliyi pulla almaq olmaz”. Ancaq və lakin bir həqiqət var ki, müasir dövrün yarıtmaz və əcayib tələbləri mövcuddur. Pul olmadan həyatda yaşamaq, sağlam ömür sürmək mümkün deyil. Pulun olmadan sərnişin avtobusuna minməyə cəhd etsən, sürücü sənin sinəndən yumruqla vurub çölə atar, metroya minməyinə əngəl yaradarlar. Pul olmadan mağazadan 40 qəpiklik çörəyi almaq, evində sadə süfrə açmaq çətindir. Hələ o yekə-yekə işləri demirəm, onları ki, pulun olmasa ev tikmək, yurd salmaq, oğul evləndirmək, qız köçürmək və digər pula bağlı məsələləri həll etmək çətin və müşkül məsələdir. İndi orta əsrlər deyil ki, məhsulların dəyişdirilməsi, yəni mübadilə edilməsi həyata keçirilsin. Məlum faktdır ki, əcdadlarımız öz tələbatından artıq qalan qida məhsullarını başqa şəxslərin istehsal etdikləri və ya hazırladıqları digər məhsullarla dəyişdirmək yolu ilə mübadilə etmişlər. İndiki müasir dövr isə alqı-satqı əməliyyatlarını nağd və ya kart vasitəsi ilə edilməsini tələb edir. Pulun varsa kefin kök, damağın çağdır, yoxdursa vay sənin halına. İndiki məqamda pul qazanmaq o qədər də asan məsələ deyil. Şərait yaradılmalı, daydayın olmalıdır. Pul-pulu gətirir-deyiblər. Pulun azdan-çoxdan olsa iş qurmaq, biznes yaratmaq olar. Daydayın və qismən də olsa pulun yoxdursa, meydana girməyin də adı yoxdur.

Bəli, müasir dövrün maddi, sosial və mədəni maraqlarını əhatə edən pul bəşər övladları üçün yaşayış mənbəyi olub və yəqin ki, dünya durduqca belə davam edəcək. Məxluqlar olacaq ki, var dövlət əldə etmək, vəzifə pillələrində yüksəlmək üçün ağılasığmaz vasitə və üsullardan istifadə edəcək, onlarla insanın haqqına girəcək, hüquqların tapdalayacaq, mənən yaralamaqdan, cismən öldürməkdən çəkinməyəcək.

Pulla bağlı cəmiyyətin mövqeyini öyrənmək üçün sosial şəbəkələrə nəzər yetirdim. Məlum oldu ki, əmmaməli mollaların şinelindən çıxan elə ünsürlər var ki, onlar özlərini hər kəsdən ağıllı göstərməyə çalışır, pulu, var-dövləti necə əldə etməyin, qazanmağın yollarını “göstərirlər”. Məsələn yazırlar: “Evdən çıxmadan pul qazanmağın 39 real yolu”, “Kiçik sərmayə ilə hansı biznesi qurmaq olar? , “Varlanmağımıza mane olan 10 vərdiş.”, “Az pulla hansı işi qurmaq olar? Və sair və ilaxır “ağıllı məsləhətlər”. Halbuki, bu məsləhətlərlə çıxış edənlərin özləri acyalavac gündə yaşayırlar. Birini şəxsən tanıyıram, itə də bir sümük borcu var. Ancaq vaxtaşırı olaraq sosial şəbəkələrdə pul qazanmağın yolları və əldə olunan var-dövləti necə qoruyub saxlamaq və genişləndirmək haqqında dürlü-dürlü “məsləhətlər” yazır. Dünən təsadüfən “qəhrəman məsləhətçi” ilə rastlaşdım, salam -kəlamdan sonra dolanışığından, yaşayışından giley-güzar edib, yanıqlı-yanıqlı ah çəkdi. Sonda da borca pul istədi. Xətrinə dəyməmdim, cibimdə olan metro və nahar pulumu ona verdim. Etik qaydanı pozmaq bahasına özümü toparlayıb, sual verməkdən də çəkinmədim: “Onabuna pul qazanmaq, var-dövlət sahibi olmaq üçün məsləhətlər verirsən, ağıllı yollar göstərirsən. Niyə özün bu ağıl dəryandan istifadə etmirsən? Sualımdan diksinən kimi oldu, gözlərini uzaq nöqtəyə dikdi, nəhayət çevrilib üzümə baxdı, yanıqlı ah çəkib dedi: “Aləmi bəzər, özü lüt gəzər” atalar misalına uyğun olaraq mən məsləhətlərimlə onu-bunu varlandırıram özüm isə gözü və könlü tox ömür yaşayıram”, - deyib bu məqamda belə kürəyini yerə vermək istəmədi. Sağollaşıb ayrılınca düşündüm ki, bəlkə də sosial şəbəkələrin “qəhrəmanı” haqlıdır. Pulun qədərindən artıq çox olması insana, ümumilikdə ailələrə zərər vura bilir. Çoxsaylı hadisələrin şahidi olmuşuq və ya eşitmişik ki, pullu-paralı şəxsin ömrü çox vaxtı onun xəstəliklər tapmasına, evinin dağılmasına, ailəsini itirməsinə gətirib çıxarıb. Ailələr var ki, zamanında kralsayağı ömür sürüblər. Evləri-eşikləri, müxtəlif şəhərlərdə villaları, fərqli markalı xarici markalı avtomobilləri olub, lakin bir məqamda sahibkarın özü və ya övladlarından biri narkotika aludəçisinə çevrilib və ya içki düşkünü olub, bununla da hər şey əllərindən çıxıb. İnsanlar var ki, həyatlarının ilkin dövründə xoşbəxt, qibtə olunan ortabab yaşayışa malik ailə olublar, lakin elə ki, vəzifə kreslosu əldə ediblər və ya sahibkarlıq fəaliyyəti ilə böyük məbləğdə pullar qazanıblar, o ailədə çatlar yaranıb. Bir qədər sonra isə o ailə üzvləri pərən-pərən düşüblər. Cütlüklərin ayrılması ilə var-dövlətin bölgüsü üstündə ağır və üzücü məhkəmə çəkişmələrinin baş verməsi halı yaranır. Beləcə böyük amallar üzərində qurulan xoşbəxt ailə pulun çoxluğu və ya vəzifənin həddindən artıq şirin olması səbəbindən dağılır. Yerində isə xatirələr, niskilli qeydlər qalır. Ona görə də, Allah hər kəsə qədərincə var-dövlət yetirsin.



Fransa bu ləkənin xəcalətindən necə çıxacaq?

# Neokolonialist ölkənin demokratiyaya, insan haqlarına təhdid olan siyasəti...

Digər bir ada ölkəsində - Martinik departamentində vəziyyət getdikcə ağırlaşır. Son günlərdə burada qiymət artımına qarşı etirazlar polislə toqquşmaya çevrilib. Ticarətçilər yalnız Martinikdə tətbiq edilən xüsusi dəniz

Fransa özünə "Azadlıq, bərabərlik və qardaşlıq" şüarını seçib. Hadisələrin gedişatı isə bunun əksinə olaraq göstərir ki, bu gün Yelisey Sarayının siyasətində bu tezislər öz təsdiqini tapmır.Bu acı gerçək, ikili standart,





Neokolonialist, irqçi, islamofob siyasət həyata keçirən Fransa hakimiyyətinə qarşı müstəmləkə ölkələri ciddi etirazlarla çıxış edirlər. Ayrı-ayrı ölkələrdə Yelisey Sarayının siyasətindən narazılıq ifadə olunan şüarlar səsləndirilir. Fransanın siyasətinə etirazların genişləndiyi və gərginliyin pik həddədək artdığı ölkələrdən biri də Yeni Kaledoniyadır. Bu günlərdə burada növbəti faciə yaşanıb. Yeni Kaledoniyada polisin gecə keçirdiyi əməliyyat zamanı daha iki nəfər güllələnib. Yeni Kaledoniyada may ayında yerli kanak xalqı və Fransa tərəfdarları arasında toqquşmalar başlayıb. Bildirilir ki, beləliklə, iyunda dayandırılan mübahisəli seçki islahatının səbəb olduğu böhranın başlanğıcından bəri ölənlərin sayı 13 nəfərə çatıb.

Kanak xalqının budəfəki etirazlarına səbəb isə Emmanuel Makron hakimiyyətinin Yeni Kaledoniya ilə bağlı mürtəce planı həyata keçirməyə başlamasıdır. Nəzərdə tutulan "konstitusiya islahatlarının" yeganə məqsədi Yeni Kaledoniyada aborogen xalqın hüquqlarını məhdudlaşdırmaq, bunun əksinə olaraq gəlmə fransızların hüquqlarını genişləndirməkdir. Səsvermə sisteminin dəyişdirilməsi ilə bağlı Fransa parlamentinin müzakirəsinə çıxarılan qanun layihəsinə görə, 10 il Yeni Kaledoniyada yaşayan Fransa vətəndaşları əyalət seçkilərində səs verə biləcəklər. Fransa hakimiyyətinin Yeni Kaledoniyada gəlmələrin seçki hüquqlarını genişləndirmək planı çox doğru olaraq elektoratın tərkibini dəyişmək hədəfi anlamında qəbul olunur. Bu isə yerli kanak xalqının mənafeyinə ziddir. Buna görə də kanaklar müvafiq qanunun qəbul ediləcəyi təqdirdə öz tarixi vətənlərində ikinci dərəcəli etnik qrupa çevriləcəklərini düşünürlər və bunun qarşısını almaq üçün ayağa qalxıblar. Makron təzyiqlər qarşısında "islahatlar" prosedurunu müvəqqəti olaraq dondursa da, kanak xalqı bunun hiyləgər bir gediş olduğunu yaxşı başa düşür və etirazları davam etdirir. Paytaxtada baş verən son faciə də etirazların birində yaşanıb.

Bu gün Yeni Kaledoniyada olduğu kimi, digər dənizaşırı ərazilərdə də müqavimət hərəkatı genişlənib. Fransız Qvianasında daha geniş muxtariyyət tələbləri artır. Fransız Qvianası Konqresi 2020-ci ildə xüsusi statusla daha çox muxtariyyət tələb






etmək üçün səs verib. Sakinlərin tələbinə baxmayaraq, 4 ilə yaxındır ki, konstitusiya tənzimlənməsi ilə bağlı Paris administrasiyası ilə danışıqlarda heç bir irəliləyiş əldə olunmayıb.

Fransadan təxminən 7 min kilometr uzaqlıqda yerləşən və 400 min nəfər əhalisi olan Karib dənizindəki Qvadelupa adasında yoxsulluq, cinayətkarlıq ən yüksək həddə çatıb. Adada muxtariyyət müzakirələri yenidən diqqət mərkəzində olarkən Fransa rəsmiləri Parisin muxtariyyət üzrə danışıqlara hazır olduğunu desə də, Yelisey Sarayı hələlik bu istiqamətdə konkret addımlar atmağa tələsmir.

vergisinin ləğvini tələb edirlər. Martinik departamentində isə qiymət artımına qarşı etirazlar polislə toqquşmaya çevrilib. Yerli polis rəisinin komendant saatı tətbiq etmək qərarı gərginliyin daha da artması ilə nəticələnib.

Fransa Milli Statistika İnstitutunun məlumatına görə, Martinikdə ərzaq məhsullarının qiyməti Parisdəkindən 40 faiz bahadır. Fort-de-Frans şəhərinin ticarət şəbəkəsi rəhbərlərinin polis rəisi ilə danışıqları nəticəsiz başa çatıb. Ticarətçilər yalnız Martinikdə tətbiq edilən xüsusi dəniz vergisinin ləğvini tələb edirlər.

yarıtmaz fəaliyyət, antihumanist siyasət və ədalətsiz mövqe Fransanın təkcə daxili siyasətinə deyil, həm də xarici siyasətinə də aiddir. Fransanın Cənubi Qafqaz ölkələrinə, konkret desək, Azərbaycana və Ermənistana münasibəti tipik ikili standartlar nümunəsidir.

Fransanın Azərbaycan əleyhinə qəti, dəyişməz və qəbuledilməz mövqe tutması, 30 il ərzində vasitəçilik pərdəsi ilə maskalanaraq regionda işğal və təcavüzün davamlılığına şərait yaratması, Azərbaycanın öz ərazilərini işğaldan və təcavüzdən qurtarmasından sonra anti-Azərbaycan mövqe tutaraq açıq şəkildə işğalı və separatizmi dəstəkləyən bəyanatlar verərək ölkəmizi hədəfə alması bu ölkənin ümumbəşəri niyyətlərə sadiq olmadığını və beynəlxalq hüququ heçə saydığını göstərir. Fransa bütün siyasi etiket qaydalarını pozmaqla, heç nəyi gizlətmədən açıq-aşkar anti-Azərbaycan siyasəti həyata keçirir.

İndiyədək Yelisey Sarayının Azərbaycana qarşı bütün qərəzli həmləri iflasa uğrayıb. Bu fiaskolar Makronun real və praqmatik siyasətdən uzaq, təsadüfi və populist biri olduğu qənaətini daha da möhkəmləndirir. Makron anlamalıdır ki, Azərbaycan öz siyasətində sırf suverenlik, müstəqillik prinsiplərindən çıxış edir və beynəlxalq hüquqa əsaslanır. Reallıq budur ki, Fransanın Azərbaycana qarşı ittihamlarına baxmayaraq, Azərbaycan Fransaya qarşı atdığı addımlar və rəsmi bəyanatlar yalnız bu ölkənin destruktiv fəaliyyətinə cavab xarakterli olub.

Fransa postmüharibə mərhələsində də Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesində vasitəçilik etmək istəyini ortaya qoyur. Ancaq açıq-aşkar Ermənistanın tərəfini saxlayan, bu ölkəyə öldürücü silahlar tədarük edən, burada revanşizmi alovlandıran, Azərbaycana münasibətdə qərəz nümayiş etdirən bir ölkə hansı haqla vasitəçi ola bilər?..

Bax, bu sualın cavabını hər kəsdən çox rəsmi Paris düşünməlidir, vəziyyəti gərginləşdirmək prinsipindən əl çəkməlidir. Bütün mövcud potensialını və enerjisini daxilindəki gərginliyi həll etməyə sərf etməlidir. Əks halda, Fransanın getdikcə Ermənistandan daha rəzil duruma düşəcəyi şübhə doğurmur.

***Yaqut Ağaşahqızı***

**_Bu gün həyəcan təbili çalmaq vaxtıdır. Ona görə ki, Azərbaycanda 2023-cü ildə 73816 abort qeydə alınıb: 5-17 yaş üzrə 68, 18-19 yaş üzrə 2528, 20-24 yaş üzrə 12315, 25-29 yaş üzrə 22140, 30-34 yaş üzrə 22306, 35-49 yaş üzrə 14376._**




# Nə qədər ki, selektiv abortlar var...

2021-ci ildə abortların ümumi sayı 46 877, 2022-ci ildə isə 58 min olub. Deməli, abort sayı böyük sürətlə irəliləməkdədir. Abortların müxtəlif səbəbləri var. Onların başlıcası isə selektiv abortlardır.

Belə bir atalar sözümüz var: Qız da, oğlan da övladdır, hər ikisi bir-birindən şirin. Lakin həmişə belə düşünürükmü? Onların hər ikisi əksəriyyətimiz üçün bal şirinliyindədirmi? Xeyr, belə deyil. Əsrlərdir ki, oğlanla qız övladı arasındakı ayrı-seçkilik cəmiyyətimizdə açıqca görünür. Bunun səbəbkarı, əslində isə günahkarı əsasən kişilərdir. Kişilərin həyatda ən böyük arzusu qadınlarının onlara oğlan doğması olur. Oğlan doğulmayanda isə ailədə söz-söhbət yaranır, kişinin dünənədək dərdindən öldüyü, sevdiyi qadın əksər halda onun gözündən düşür, hətta bu səbəbdən boşanmalar da baş verir. Bununla bağlı yüzlərlə



fakt söyləmək olar. Nəticə isə göz qarşısındadır. Elə məni bu yazını yazmağa vadar edən də həmin nəticədir.

### 100 qıza 112 oğlan

Dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya uyğun olaraq 102-106-dır. Belə ki, heç bir xarici müdaxilə olmadığı təqdirdə doğulan hər 100 nəfər qız uşağına 102-106 oğlan uşağı düşür. 1990-cı illərin əvvəllərindən Azərbaycanda bu nisbətin pozulması müşahidə edilir. 2021-ci ilin statistikasına əsasən, Azərbaycanda 100 qıza 115 oğlan düşüb. Əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. İndi vəziyyət əksinədir. Belə ki, hazırda Çində bu göstərici 100-110,3 təşkil edir.

Azərbaycanda son onilliklər ərzində nəsilvermədə baş vermiş tənəzzül və dölün cinsinin müəyyən edilməsinə imkan yaradan ultrasəs müayinəsindən geniş istifadə nəticəsində ölkədə oğlan uşaqlarına verilən üstünlük selektiv abortlar vasitəsilə reallaşdırılır. Bu isə doğulan uşaqlar arasında cins nisbətinin ciddi şəkildə pozulmasına səbəb olur.

2022-ci il üzrə doğumu qeydə alınmış 122 846 nəfərdən 64 940-ı oğlan, 57 906-sı isə qızdır. Cinslər arasındakı fərq 7 034 nəfərdir. Cins nisbəti hər 100 qıza 112 oğlan təşkil edir.

2023-cü ilin yanvar-sentyabr aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkə üzrə 85352 doğulan körpə qeydə alınıb. Doğulanlar arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,3 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,7 faiz olub.

BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq. Cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin acınacaqlı nəticələrlə üz-üzə qalması halına gətirib çıxara bilər. Bura gender bərabərsizliyi, zorakılıq, erkən nikah, insan alveri və kriminal səviyyənin artması aiddir. Bu vəziyyətlə qarşılaşmaq istəmiriksə, qızlara dəyər verməli lazımdır. Ədalətli cəmiyyət naminə qızlar üçün bərabər imkanlar yaradılmalıdır”.

Qeyd edim ki, 2022-ci illə müqayisədə 2023-cü ildə cinslər arasındakı fərq azalıb, yəni, 7034 dən 7008 ə düşüb. Bu da azlıq təşkil etdiyindən nəticəyə bir o qədər təsir etmir.

### “Bəsdi” hökmü

Cəmiyyətimizdə oğlan övladına üstünlüyün verilməsi, onun daha çox arzulanmasıdır. Bu arzunu da həyatımıza daxil olan müasir texnologiyalar “çin etdi”. USM-lər 90-cı illərədək ailələrimizdə doğulan, hətta “ta bəsti” deyilib Bəsti adı verilən qızlarımıza “bəsd i” hökmünü verməyə başladı. O Bəstilər ki, kişi qeyrəti, namusu, zəhmətkeşliyi, ata-ana qədri bilməsi ilə yaddaşlarımıza həkk olunublar. O Bəstilər ki, evlənib həyat yoldaşı ilə uzaq şəhərlərdə yaşamağı seçən oğulların evin altında qalan yaşlı ata-anasının baxıcılarına çevriliblər illərlə. Öz ailələrinin işini bitirib, axşamda-səhərdə ata evinə qaçıb onlara qulluq ediblər. O Bəstilər ki, oğullar ata-ananın cənazəsinə gəlib çıxanadək onların başının üstünü kəsiblər.



Bütün bunları hər birimiz yaşadığımız rayonlarda, şəhər və kəndlərdə qohumlarımız, qonşularımız arasında dəfələrlə müşahidə etmişik. Lakin bütün bunlar eyni zamanda oğlan övladına olan istəyimizi, onlarla qızlarımız arasına qoyduğumuz ayrı-seçkiliyi dəyişə bilməyib. Çünki bizim təfəkkürümüzdə problemlər var. Biz hər zaman düşünmüşük ki, oğul davamçıdır. Maraqlıdır, qız övladı bəs nədir, sonsuzluqdur. Belə çıxır ki, biz qızı övlad hesab etmirik ki, onun da övladını özümüzə davamçı hesab etmirik. Çox təəssüf ki, XXI əsrdə yaşasaq da, hələ də X-XI əsrlərin təfəkküründə qalmaqda, bunu eynilə qəbil etməkdəyik. Bu səbəbdən də hər bir kişi evində ən azından bir oğlan övladı olmasını istəyir, həm də şiddətli dərəcədə istəyir. Odur ki, buna nail olması üçün də bəzən şiddətli hərəkətlər törədir. Həyat yoldaşına qarşı zorakılıq edir, onunla nikaha son qoyur, yenidən ailə qurur. Lakin onu anlamır ki, övlad payını verən Yaradandır. Alın yazın deyilsə, istəyirsən 3 dəfə evlən-boşan. Bunun da dəfələrlə şahidi olmuşuq.

Bəli, elə ki, USM-lər uşaqların cinsini müəyyən etməyə başladı, bu, kişilərimiz və özünü oğlan doğa bilməməkdə günahkar hesab edən qadınlarımız üçün yaxşı bir fürsət oldu.

### USM-lər həm də ailə planlaması işini görür

Statistikaya nəzər salsaq görərik ki, USM-lər ilk zamanlar ailədə 2-3 qız övladı olub oğlan dünyaya gətirmək istəyən qadınlara xidmət edirdi. Bu yolla minlərlə ailə öz oğlan övladı arzusuna çatırdı. Sonralar isə ultrasəs müayinəsi, sözün əsl mənasında, ailə planlamasına da çevrildi. Belə ki, bu gün Azərbaycanda selektiv abortların gətirdiyi nəticələr üçün tək kişilər deyil, həm də qadınlarımız təqsirkardır. Çünki qadınlar zaman-zaman ultrasəs müayinəsini ailə planlamasına da çevirdilər. Yəni ilk övladı qızdırsa, daha ikincinin qız olmasına yol vermədilər. İkincini oğlan istəməklə həm həyat yoldaşlarının arzularını gerçəkləşdirdilər, həm də artıq övlada gərək olmadığını düşündülər. Beləliklə, indi hamımız şahidik ki, əksər ailələrdə iki uşaq var: bir qız, bir oğlan. Bunun gələcəkdə bizi böyük problemlərlə üz-üzə qoyacağından hələlik xəbərimiz olmadığı üçün bu cür də davam etməkdəyik.

Yaşlı bir qadın tanıyırdım, mamatibb bacısı idi. O deyirdi ki, ailədə iki uşaq tamamilə səhv fikirdir. Həmin ailə fikirləşməsin ki, biz dünyaya insan bəxş etdik. İki uşaqdan biri ata, biri anadır. Əgər ailədə üçüncü uşaq varsa, bu, artım sayıla bilər. Nə qədər doğru söyləmiş fikirdir. Dəfələrlə təsadüf etmişik ki, ailələrdə iki övladdan biri ya xəstəlikdən, ya da hansısa qəza nəticəsində dünyasını dəyişir, o biri uşaq evdə tək qalır, bundan böyük travma alır. Bu, həm də uşaqların psixoloji durumuna ciddi təsir göstərir. Öz qardaş və ya bacısını itirən uşaq əgər ailədə üçüncü uşaq olarsa, onunla təsəlli tapar, əks təqdirdə onun vəziyyətini düşünmək heç də çətin deyil. Belə uşaqlar üçün gələcək həyat daha dözülməz olur. Çünki onlar tamamilə tək qalırlar.

Məsələnin bu tərəfi üçün məhz qadınlar günahkardır. Çünki iki övladından birinin oğlan olması ilə kişi artıq ailə üzvlərinin daha da artmasına maraqlı olmur. Lakin qadın həm də anadır. Övladının bu gününü və gələcəyini düşünmək kişilərdən çox, qadınlara bəxş olunan hissdir. Lakin qadınların işlərinin yüngül olması, karyera dalınca getmək, daha çox əziyyət çəkməmək üçün USM-lərin köməkliyi ilə ailə planlaşdırmaları bu kimi problemlər yaradır. O problemlər ki, əhali sayının da, ailədə uşaq sayının da artımına və bunun yaratdığı problemlərə ciddi şəkildə təsir göstərir.

### Oğlun yoxdu-sonun yoxdu, dedilər...

Bizdə oğlan övladına verilən üstünlüyün nəticəsidir ki, zaman-zaman dilimizdə hətta oğlanla bağlı deyimlər, atalar sözləri də yaranmışdır. Məsələn, oğul düşmən çəpəridir, oğul nəslin davamçısıdır, oğul evin dirəyidir, oğul ata-ananın baş tacıdır və sair belə onlarla deyimlər, atalar sözləri yaranmışdır. Ən dəhşətlisi isə budur ki, ailələrimizdə oğlan doğulmayanda sanki o nəslin, kökün davamının olmadığını düşünürük. Aşağıdakı misralar böyük şairimiz Məmməd Araza da vaxtilə oğlu olmadığı üçün sonsuz deyənlərə qarşı tək şairin düşüncələri deyil, bu düşüncə tərzində olan cəmiyyətə bir giley, bir təəssüf hissi idi.

**Oğlun yoxdu - sonun yoxdu, dedilər,**
**Sağın yoxdu, solun yoxdu, dedilər,**
**Odun boyda suyun yoxdu, dedilər,**
**Bu da belə bir ömürdü, yaşadım.**

Bir oğlu olmayan qadın və ya kişi rəhmətə gedəndə də yaxınları onu “oğulsuz canına mən qurban olaram” deyib ağlayırlar. Və



yaxud da Yaradana asi düşərək, “Allah, nə deyim sənə, buna da bir şirin pay verərdin də”, - deyirlər.

Onu da çox böyük təəssüf hissi ilə vurğulamaq istəyirəm ki, bizdə oğlan uşağına, şirin pay, deyirlər. Mən bunu əvvəlki yazılarımda, hətta felyetonlarımda da dəfələrlə vurğulamışam. Bəs görəsən qızlar necə, acı paydırlar?..

### Nə qədər ki, selektiv abortlar var...

Selektiv abortlar insanlığa qarşı haqsızlıq, təhqirdir. Qadınla kişi arasında bərabərliyə zidd, ən təhlükəli vasitədir. Hansı ki, buz Gender bərabərliyindən danışırıq, lakin bu bərabərliyi pozan birinci amil selektiv abortlardır.

Selektiv abortların çoxalmasında, dünyada ölkəmizi birinci etməsində, oğlan və qız balansının pozulmasında, bunun gələcəkdə böyük problemlərə səbəb olmasında hər birimiz günahkarıq. Biz illər öncədən bu xalqa məxsus milli adət-ənənələrdən yola çıxmalıydıq. Bu yolda insanlığa balta çalan bu yeniliyi baltalamalı, onun inkişafının, yayılmasının qarşısını almalıydıq.

Bu gün son illərin statistikasına nəzər salanda bütün illərdə doğulan uşaqlar arasında oğlanların qızlardan artıq olmasını müşahidə edirik. Bunun yaratdığı problemlər isə artıq hiss olunmaqdadır. Yaxın gələcəkdə isə bu problemin ağırlığı çiyinlərimizi yara edəcək.

Bu gün Azərbaycanın selektiv abortlara görə dünyada irəlidə olması artıq səhiyyə sistemində təbilin çalınmasının vaxtının çatdığını göstərir. Selektiv abortlar indiyədək niyə qadağan olunmayıb? Görəsən bunun qarşısını nə kəsib? Kiminsə haqqı deyil dünyaya gətirəcəyi uşağın cinsini əvvəlcədən bilsin. Heç kimin də bunu bilməmək hüququ pozulmur. Bəs belə isə bu növ abort nə üçün qadağan olunmur?

Oğlanların sayı artır, qızların sayı dəfələrlə azalır. Biz gələcəkdə ana olacaq qız tapa bilməyəcəyik. Düşünürəm ki, bütün həkimlər, mütəxəssislər bu çağırışımıza səs verər, selektiv abortlar qadağan edilər. Son olaraq onu demək istəyirəm ki, bizim Bəstilər, Yetərlər, Qızbəstilər başımızı heç vaxt aşağı etməyiblər. Qoy onların davamçıları olan qızlarımız doğulsun...

***Mətanət Məmmədova***

# Payız qapıdan girdi, xəstəliklər bacadan



## Yenə payızdan əvvəl xəstəliklər gəldi



***İqlim dəyişikliklərinin bəşəriyyətə verdiyi "töhfə"lərdən biri də anomal hava şəraitidir. İndi fəsildən fəsilə keçid də dəyişib, axşam isti, boğucu yay fəslində yatırsan, sabah küləkli, yağışlı, boz payıza oyanırsan. Havaların anormal dəyişikliyi təbii ki, insan orqanizminə mənfi təsir göstərir. İctimai nəqliyyatda, iş yerlərində burnunu çəkən, xırıltı ilə öskürən, asqırmaqdan gözləri yaşaran adamları artıq tez-tez görəcəyik. Nəqliyyatdan düşər-düşməz əllərimizi nəm salfetlərlə "dezinfeksiya" da edənimiz də çoxdur, tibbi maska ilə gəzənimiz də. Amma bütün tədbirlərimiz çox vaxt boşa gedir, payızın məşhur qripi, öskürəyi bizim də qapımızı döyür. Hətta bir çoxumuzda bu xəstəlik allergiya halına çevrilir. Bəs payızın gətirdiyi bu allergik xəstəliklərdən necə qorunmalı?***

Payızın ən çox xəstəlik yayan iki elementi kif və göbələkdir. Evdəki nəmlik, zirzəmidəki rütubət göbələklərin yayılması üçün ən əlverişli mühitdir. Göbələk yayan mikroblar hava yolu ilə asanlıqla yayılır. Göbələk və kifdən qorunmaq üçün hamam və mətbəxin nəmlik dərəcəsini normal tutmaq lazımdır. Bundan əlavə, isidici və kondisionerinizi uzun müddət işlətməmisinizsə işə salmazdan öncə filtrlərini təmizləmək lazımdır. Əks halda ora yığılan tozlar hava vasitəsi ilə burun və ağıza dolaraq allergik reaksiyalara səbəb olur. Evdə çox xalça-palaz istifadə etməyin, siz yeridikcə onlara hopmuş tozlar da sizə zərər verir.

### Küləklər şəhərinin xəstəlikləri

Bu mövsümdə xüsusilə Bakıda külək bol olduğu üçün tozları havada yayır, hava vasitəsi ilə ağciyərlərimizə yol açan tozlar ciddi xəstəliklərə - xroniki qrip, ağciyər xərçəngi kimi xəstəliklərə səbəb olur. Payız allergiyalarından qorunmaq üçün bu mövsümdə küləkli havalarda pəncərələrinizi açıq saxlamayın və bayırda gəzməyin. Yaxşı olar ki, saat 10:00 ilə 16:00 arasında bayırda olmayasınız. Bayırdan gələn kimi paltarlarınızı dəyişin, mümkün olduqca paltarlarınızı sadəcə isti su ilə durulayın, çünki külək havadakı tozcuqları üstünüzə hopduraraq evdə də allergik havada nəfəs almanıza səbəb ola bilər.

Bu mövsümdə allergik xəstəliklərə səbəb olan heyvan tükü də təhlükəlidir. Mövsümü allergiyası olan insanların 30 faizində heyvan tükünə allergiya var. Xüsusilə it, pişik kimi ev heyvanlarının tükü, idrarı, ağız suyu allergiyaya səbəb olur. Küçədə gördüyünüz pişik və iti tumarlasanız belə əllərinizi dərhal yuyun, evinizdə bu tip heyvanlarınız varsa veterinar müayinəsindən keçirməklə özünüzün və ailənizin təhlükəsizliyini təmin etmiş olarsınız. Pişiklər itlərə nisbətən daha çox allergik zəmin yaradır, buna görə də evinizdə pişiyiniz varsa ona divan-kresloya çıxmağı, mətbəxə, yataq otağına girməyi qadağan edin.



### Halsızlıq, asqırıq, öskürək...

Bacamcıqların şişməsi, iltihablanması bu fəslin ən çox rastlanan xəstəliyidir. Əslində badamcıqların iltihablanması bədəndə baş qaldıran başqa bir xəstəliyin xəbərdarlıq siqnalıdır. Boğaz ağrısı, udqunmada çətinlik və qızdırma ən birinci əlamətləridir. Bu əlamətləri özünüzdə hiss edən kimi ətraflı müayinədən keçin. Xəstəliyin irəliləməsi üçün həkim təyinatı ilə antibiotik qəbulu vacibdir.

Soyuqdəymə və qrip də payızın "sevdiyi" xəstəliklərdəndir. Adətən halsızlıq, asqırıq, sulu burun axıntısı, burunda durğunluq, boğazda quruluq kimi əlamətlərlə müşahidə olunur. Öskürək, arqırıq hava yolu ilə virus yayır. Soyuqdəymə qripə təkan verən, nisbətən yüngül xəstəlikdir, amma qrip ağır nəticələrə belə səbəb ola bilər. Kəskin əzələ ağrıları, qızdırma və halsızlıqla müşahidə olunur. Həm soyuqdəymə, həm də qrip özözünə keçdiyi üçün həkim müalicəsinə ehtiyac yoxdur, ən etibarlı sağalma üsulu bol maye qəbul eləmək, dincəlməkdir. Qızdırma salan dərmana və qrip əleyhinə spreylərdən istifadə eləmək olar.

Payızın gətirə biləcəyi ən ağır xəstəliklərdən biri də haymoritdir. Burun tıxanıqlığı, sarı, yaşıl və ya qanlı burun axıntısı, gözlər ətrafında dəhşətli ağrı, diş ağrısı ilə qarışan yanaq ağrısı, üzdə təzyiq hissi, qabağa əyilməklə artan üz və ya baş ağrısı, pis ağız qoxusu əlamətləri ola bilər. Bəzən də quru öskürək, yüngül temperatur və ya mədə narahatlığı kimi şikayətlər də görülə bilər. Adətən antibiotik müalicəsi təyin edilir. Lakin müalicə düzgün aparılmasa qış boyu öskürək, qızdırma da verən haymorit xroniki hala keçərsə cərrahi müdaxilə qaçınılmaz olur.

Payızın bəxş elədiyi xəstəliklərdən biri də qırtlağın iltihabı olan laringitdir. Səs telleri laringit zamanı vibrasiya qabiliyyətini itirir, xəstənin səsi xırıltılı olur və ya tamamən itir. Tənəffüs çətinləşir, ağrılı öskürək əmələ gəlir. Tənəffüs yolunun tıxanması bəzən çox ciddi ola bilir, xüsusi ilə uşaqlarda yalançı boğulma şəklində təzahür edir. Müalicə sırasında qətiyyən siqaret çəkmək və çox danışmaq olmaz.



Bu fəslin xəstəliklərindən olan bronxit bronxların iltihabıdır. Əlamətlər çox zaman soyuqdəymədən sonra ortaya çıxır. İlk günlərdə quru olan öskürək daha sonra bəlğəmli öskürəklə əvəzlənir. Həkimlər bəlğəmsökücü dərmanlarla bərabər bronxları da müalicə edən preparatlar təyin edir. Payız astma xəstələri üçün də əlverişsiz fəsildir, çünki astma tutmalarına səbəb allergik reaksiyalar, havadakı tozlar və viruslardır. Həkimlər astma xəstəliyi olanlara payız fəslində bayırda maska ilə gəzməyi, çox yorulmamağı, tərləməməyi məsləhət görür. Bundan əlavə astma olan xəstələr mümkün qədər pambıqdan olan geyimlər geyinməli, yorğan-döşəyi pambıqdan olmalıdır, yaşadıqları evdə xalça-palaz yerinə sadə döşəmə olmalıdır. Astma tutması öskürək, nəfəs darlığı, xırıltı ilə müşahidə olunur.



Payızın gətirdiyi xəstəliklərdən olan sətəlcəm ağciyər toxumalarının iltihabıdır. Üşümə, titrəmə, yüksək qızdırma və öskürəklə başlayır. İlkin diaqnoz çox əhəmiyyətlidir. Uyğun antibiotik müalicəsi ilə tamamilə sağalan bir xəstəlikdir. Həkimlər, bəzi risk qruplarının, məsələn əməliyyat ilə dalağı götürülmüş olan insanların, yaşlıların, xroniki ağciyər xəstəliyi olanların pnevmoniya peyvəndi etdirmələrini məsləhət görür.

Payız allergiyasından qorunmaq üçün ən birinci şərt bol D və C vitamini qəbul etməkdir, yaxşı olar ki, D vitaminini günəş vasitəsi ilə alasınız. İkincisi, qidalanmanız mükəmməl olmalıdır. Unutmayın, çox yemək yox, nəyi və necə yemək vacibdir. Bol meyvə və tərəvəz yemək lazımdır, daha çox qırmızı, sarı meyvələrə üstünlük verin. Bu fəsildə də idmanda aktiv olun, ən əsası bol-bol üzün.

3 gündən artıq davam edən üşütmə-qızdırma həkimə getmək üçün birinci səbəbdir. Həkim müalicəsindən əlavə yaxşı qidalanma, normal yuxu, idman xəstəlikdən xilas olmağa kömək edəcək. Payız xəstəliklərinə yoluxmamaq üçün əlləri gündə bir neçə dəfə sabunla yumaq vacibdir, mövsümə uyğun geyinməklə özünüzü həm soyuqdan, həm də tərləmədən qoruyun. Olduğunuz yerdə temperatura diqqət edin, nə çox isti, nə də çox soyuq mühitdə qalmayın. Həkimlər normal zamanda 25, yuxu vaxtı 22 dərəcə olan istilik məsləhət görür. Xüsusilə də iş yerlərində fincan, kompyuter, qələm kimi əliniz dəyən əşyaları ortaq istifadə etməyin. Hər gün ən az 7 saat yatmaq, meyvə, tərəvəz, maye qəbul etmək vacib şərtlərdəndir.

***Lalə Mehralı***

# Zəngəzur dəhlizi: Rusiyanın və İranın mövqeyi eynidir, yoxsa fərqli?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*




> *"Moskva iki dəhliz formulunda maraqlıdır. Bu mövzuda İran və Rusiya arasında hansısa sövdələşmə gedir"*

***R**usiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu Tehranda İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədian ilə görüşündə İranın Azərbaycanla dəhlizlər və nəqliyyat marşrutları ilə bağlı siyasətini dəstəklədiyini təsdiqləyib. Agentliyin məlumatına görə, Şoyqu Rusiya prezidenti Vladimir Putinin mesajını ona çatdırmaq və tərəflər arasında əldə olunan razılaşmalar barədə məlumat vermək üçün İran prezidenti Məsud Pezeşkianla da görüşüb.*



Bu fonda bir sual yaranır: Rusiyanın Zəngəzur dəhlizinin işə salınması məsələsində mövqeyi dəyişibmi? Axı Moskva yaxın vaxtlara qədər nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasını fəal şəkildə müdafiə edirdi. Rusiyalı politoloqlar bu mövzu ilə bağlı fikirlərini "Caliber" analitik mərkəzinə açıqlayıblar. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.



## "Rusiyanın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi Azərbaycanın mövqeyinə daha yaxındır"

**Rusiyalı beynəlxalq məsələlər üzrə ekspert və İran üzrə mütəxəssis Nikita Smaqinin** fikrincə, hər üç tərəf ümumilikdə Azərbaycanın qərb bölgələrindən Naxçıvana dəhliz açmaqda maraqlıdır, lakin bunu hər kəs öz marşrutu ilə görür, maraqlar fərqlidir və bunun necə edilməli olduğu haqda öz mövqeləri var.

"Azərbaycan optimal formul üzrə iki dəhlizin olmasında daha maraqlıdır: həm Ermənistan ərazisindən, həm də İrandan. Aydındır ki, bu formatla risklər maksimum dərəcədə şaxələndirilir və Bakıya təzyiq təhlükəsi minimaldır. İran dəhlizin yalnız öz ərazisindən keçməsində maraqlıdır, o zaman bu prosesə nəzarət edə və ondan həm iqtisadi, həm də siyasi dividendlər əldə edə bilər.

Rusiyanın mövqeyi Azərbaycanın mövqeyinə daha yaxındır: Moskva iki dəhliz formulunda maraqlıdır. Lakin Rusiyanın mövqeyi o qədər də qəti deyil. Aydındır ki, bu mövzuda İran və Rusiya arasında hansısa sövdələşmə gedir. Amma ümumilikdə İranın Rusiyanı inandıra bildiyini və Moskvanın tamamilə "İran yolu" haqda düşünməyə başladığını söyləmək tezdir- hələ ki, bunu təsdiqləyən faktlar yoxdur. Şoyqunun Tehrandakı bəyanatı səliqəli diplomatik jest kimi görünür və hələlik Moskvanın bu məsələdə mövqeyində köklü dəyişikliyə işarə etmir",- N.Smaqin hesab edir.




## "İran öz ərazisindən yeni yolun açılmasını istəyir, amma keçmiş yolun da bərpasına qarşı deyil"

**Cənubi Qafqaz üzrə rusiyalı ekspert Konstantin Tasitsin** sözlərinə görə, Rusiyanın mövqeyi 2020-ci ildən bəri dəyişməz qalıb. Moskva Azərbaycan, Ermənistan və Rusiya liderlərinin Üçtərəfli Bəyanatına uyğun olaraq regionda bütün nəqliyyat kommunikasiyalarının açılmasının və iqtisadi əlaqələrin bərpasının tərəfdarıdır.

"Bildiyiniz kimi, üçtərəfli qrupda baş nazirin müavinləri səviyyəsində razılıq əldə olunub ki, nəqliyyat əlaqələrinin bərpası Meqridən keçən dəmir yolu hissəsindən başlayacaq. Blokların açılması ilə bağlı sənəd də praktiki olaraq razılaşdırıldı, burada bütün nüanslar müzakirə edildi. Yalnız bir neçə uyğunsuzluq qaldı. Lakin Ermənistan işi başa çatdırmadan Üçtərəfli Qrupun işində iştirakını dayandırdı və yeni ideyalar, xüsusən də "Dünyanın kəsişməsi" adlandırdıqları ideyalarını irəli sürməyə başladı",- deyə politoloq qeyd edib. İranın narahatlığı, rusiyalı politoloqun fikrincə, çox güman ki, məlumatsızlıqdan irəli gəlir. "Bu mövzuda bir sıra görüşlər təşkil olunub, o cümlədən Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun iştirakı ilə bu məsələ ilə bağlı Rusiyanın mövqeyi rəsmi şəkildə bildirilib.

İranın mövqeyinə daha dərindən getsək, buradakı nüans odur ki, o, Zəngəzur dəhlizinin ekstraterritorial formasına, eləcə də ətraflı sitat gətirsək, "beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəyişdirilməsinə" ziddir. İran öz ərazisindən Araz nəqliyyat dəhlizinin açılmasını, Araz çayı üzərində körpülərin, sahil boyu 55 km uzunluğunda avtomobil və dəmir yolunun olmasını istəyir. Amma fakt budur ki, İranın bu mövqeyi heç bir halda Ermənistanın cənubundan keçən dəmir yolunun bərpasına zidd deyil. Ümumiyyətlə, bir daha təkrar edirəm, kommunikasiyaların fəaliyyəti ilə bağlı bütün məsələlər praktiki olaraq Üçtərəfli Təmas Qrupunda baş nazirin müavinləri səviyyəsində razılaşdırılıb. Prosedurlarla bağlı hər hansı fikir ayrılığı olsaydı, Ermənistan bu işdə konstruktiv iştirakını davam etdirsə, onlar həll edilə bilərdi",- deyə K.Tasits yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***



SON SƏHİFƏ

SƏS

24 sentyabr
2024-cü il

# Yaponiyada 100 ildən çox yaşayan minlərlə insan var...



***Yaponiya tarixində bir ilk yaşanıb. Ölkədə 100 yaşdan yuxarı insanların sayı ilk dəfə olaraq 95 mini keçib."Haber Global"ın məlumatında deyilir ki, Yaponiyanın Səhiyyə, Əmək və Rifah Nazirliyi ölkədə artan yaşlı əhalinin sayı ilə bağlı statistik məlumatları açıqlayıb. Buna əsasən, 100 yaşdan yuxarı əhalinin sayı ardıcıl 54 ildir ki, artır.***

Sentyabr ayı etibarilə ölkədə bir əsrdən çox yaşayanların sayı 95 min 119 olaraq qeydiyyata alınıb.

Keçənilki məlumatlarla müqayisədə 2 min 980 artım olub və yaşı 100-dən yuxarı olanların 83 min 958 nəfərinin qadın, 11 min 161 nəfərinin isə kişi olduğu müəyyən edilib. ”Yaşlıların rahat yaşamağa davam etmələri üçün tibbi xidmətlər və tibb bacısı xidməti də daxil olmaqla, sosial rifah xidmətlərini artırmağa çalışacağıq”, - deyə nazirlik sözçüsü mövzu ilə bağlı açıqlamasında bildirib.

Qeyd edək ki, Yaponiyada bir əsrdən çox ömür sürənlərlə bağlı əhali məlumatları ilk dəfə 1963-cü ildə qeydə alınmağa başlayıb.

# “Bakcell”in dəstəyi ilə “Xəzəri qoruyaq!” aksiyası baş tutub

***Azərbaycanın ən sürətlisi“Bakcell”in uzun illər tərəfdaşı olduğu “Xəzəri Qoruyaq!” adlı genişmiqyaslı ekoloji aksiya başa çatıb. “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunan və sentyabrın 7-dən 21-dək davam edən builki aksiyanın sonuncu məntəqəsi Novxanı sahilləri olub.***




“Xəzəri Qoruyaq!” şüarı ilə keçirilən ekoloji aksiya, bütün dünyada qeyd edilən Beynəlxalq Sahilyanı Təmizlik Günü çərçivəsində təşkil edilib. Kampaniyanın əsas məqsədi ölkədə ekoloji durumun yaxşılaşdırılması, əhalinin bu sahədə maarifləndirilməsi və ətraf mühitə məsuliyyətli yanaşma vərdişlərinin təşviqidir.

“Bakcell” əməkdaşları da aksiyada fəal iştirak edərək sahil təmizləmə işlərinə öz töhfələrini veriblər. Onlar həm tullantıların yığılması, həm də onların çeşidlənərək təkrar emala göndərilməsində yaxından iştirak ediblər. Ekoloji aksiyalarda iştirak “Bakcell” şirkətinin korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. Şirkət ətraf mühitin qorunması, ekoloji maarifləndirmə və davamlılıq mövzularında təşəbbüsləri dəstəkləməyi və bu sahədə fəaliyyətini daha da genişləndirməyi planlaşdırır.


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Ötən ilki payız ucuzlaşmasını görə bilməyəcəyik"



***“Hazırda yay aylarındakına nisbətən meyvə-tərəvəzdə müəyyən ucuzlaşma var. Məsələn, pomidor haradasa 1 manat - 1 manat 30 qəpiyə qədər ucuzlaşıb, almanı 80 qəpiyə tapmaq olur”. Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Birliyinin sədri, iqtisadçı-ekspert Akif Nəsirli deyib.***

## *MÜNASİBƏT*

Onun sözlərinə görə, digər məhsulların da qiymətində müəyyən normallaşma var: “Məsələn üzüm 1 manat yarımdır, 2 manata da var. Nar təzə çıxır bir qədər bahadır, yəqin ki, bollaşdıqca ucuzlaşacaq. Ümumiyyətlə, əvvəllər də qeyd etdiyimiz kimi bu il ötən ilki payız ucuzlaşmasını görə bilməyəcəyik. Bunun səbəblərindən biri odur ki, bu il meyvə-tərəvəz qıtdır. Yəni hava şəraiti ilə bağlı olaraq məhsuldarlıq aşağıdır.

Digər tərəfdən, ötən ildən indiyə qədər bir il ərzində xeyli inflyasiya gedib. Bu inflyasiya da məhsulların qiymətinə təsirsiz ötüşmür. Ona görə də bəzi meyvələrdə ötən ilkinə nisbətən xeyli bahalaşma var. Məsələn, zoğal 1 manat 50 qəpik - 2 manat idi keçən il bu vaxt, indi zoğalın qiyməti 3 manat - 3 manat 50 qəpiyə qədər qalxıb.

Digər məhsulları da, digər meyvə-tərəvəzləri də ötən ilki dövrlə müqayisə edəndə qiymətlər bir qədər bahadır. Yəni bunun da səbəbi iki istiqamətdəndir. Birincisi, məhsuldarlıq aşağıdır, ikincisi inflyasiya gedib, hələ üçüncüsü də var. Son aylarda yanacağın qiyməti də bahalaşıb və bu bahalaşmanın da meyvə-tərəvəzin maya dəyərinə müəyyən qədər təsiri var. Yəni daşımalar bu baxımdan önəmlidir. Amma gələn il artıq həm də indiki o baha yanacaq qiymətləri ilə bu məhsullar becəriləcəkdir. Gələn il hesab edirəm ki, qiymətlərə bir qədər də daha çox təsir edəcəkdir”.

***Ayşən Vəli***


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700